Təbii ki, təxminən 30 illik erməni işğalı Azərbaycanın cənnət bölgəsi olan bu ərazilərin mədəni irsinə böyük ziyan vurdu. Bir çox abidələr məhv edildi, qoruqlara və meşələrə ziyan dəydi. Vəhşi münasibət, işğaldan azad edilmiş ərazilərin memarlıq şah əsərlərinin və təbii müxtəlifliyinin küfrlə məhv edilməsi erməni təcavüzkarlarının bütün əsas təbiətini təcəssüm etdirir (https://www.karabakh.center/az).

İşğal nəticəsində iqtisadiyyatın bütün digər sahələrinə olduğu kimi turizm sahəsinədə külli miqdarda ziyan dəymişdir. Mövcud infrastruktur tamamilə dağıdılmış və ya yararsız hala salınmışdır. Beləki, ötən işğal illəri ərzində turizm sektoru üçün perspektivə malik aşağıdakı obyektlər erməni vandalları tərəfindən dağıdılmışdır:

**Cədvəl 4: Uzun illər erməni işğalı nəticəsində dilbər güşələrimizdə dağıdılan obyektlərin statistikası**

| |
|---|
| ❖ Yaşayış məntəqələri – 900 |
| ❖ Evlər – 130939 |
| ❖ İctimai binalar – 7000 |
| ❖ Məktəblər – 1025 |
| ❖ Uşaq bağçaları – 855 |
| ❖ Səhiyyə ocaqları – 798 |
| ❖ Kitabxanalar – 927 |
| ❖ Məscidlər və məbədlər – 53 |
| ❖ Tarixi abidələr, muzeylər və yerlər – 473 |
| ❖ Muzey eksponatları – 40000 |
| ❖ Sənaye və kənd təsərrüfatı obyektləri – 2389 |
| ❖ Avtomobil yolları - 5198 km |
| ❖ Körpülər - 348 |
| ❖ Su xətləri - 7568 km |
| ❖ Qaz xətləri - 2000 km |
| ❖ Elektrik xətləri - 76940 km |
| ❖ Meşələr - 280000 ha |
| ❖ Məhsuldar torpaqlar - 1000000 ha |
| ❖ İrriqasiya sistemləri - 1200 km |

**Mənbə:** http://www.xocalininsesi.info/

Bütün Azərbaycan kimi işğaldan azad edilmiş ərazilər də çox qədim tarixə malikdir. Bura tarixi, maddi və mədəni abidələri ilə məhşur olan, zəngin ədəbiyyatı, sənəti, musiqi mədəniyyətinə malik olan bir regiondur. Regionda bir sıra turizm istiqamətləri üzrə fəaliyyətlərin təşkili iqtisadi cəhətdən əlverişli olacaqdır (Faiq İsmayılov, 2016. s 8).

**Cədvəl 5: 2019-cu ilin sonuna Azərbaycan Respublikasının işğaldan azad edilmiş şəhər və rayonları üzrə dövlətin mühafizəsində olan daşınmaz tarixi-mədəniyyət abidələrinin əhəmiyyətinə görə bölgüsü**

| Şəhər və rayonlar | Dünya əhəmiyyətli | | Ölkə əhəmiyyətli | | | Yerli əhəmiyyətli | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | Arxeoloji | Memarlıq | Arxeoloji | Memarlıq | Bağ-park, monumental və xatirə abidələri | Arxeoloji | Memarlıq | Bağ-park, monumental və xatirə abidələri | Sənət abidələri |
| **Azərbaycan** | 80 | 21 | 1671 | 387 | 87 | 799 | 2678 | 136 | 177 |
| **Yuxarı Qarabağ iqtisadi rayonu-cəmi** | 8 | 4 | 161 | 93 | - | 14 | 292 | 16 | 1 |
| O cümlədən | | | | | | | | | |
| Cəbrayıl | 1 | 2 | 16 | - | - | 9 | 12 | 2 | 1 |
| Füzuli | 2 | - | 14 | 4 | - | - | 43 | 2 | - |
| Ağdam | 3 | 1 | 96 | 3 | - | 4 | 34 | 4 | - |
| Tərtər | 1 | - | 15 | - | - | - | - | - | - |
| Xocalı | 1 | - | 12 | 15 | - | - | - | - | - |
| Şuşa | - | 1 | 5 | 44 | - | - | 155 | 5 | - |
| Xocavənd | - | - | 3 | 27 | - | - | 40 | 1 | - |
| Xankəndi | - | - | - | - | - | - | 1 | 2 | - |
| **Kəlbəcər-Laçın iqtisadi rayonu-cəmi** | - | 2 | 27 | 27 | - | 9 | 97 | 7 | 16 |
| **O cümlədən** | | | | | | | | | |
| Kəlbəcər | - | 2 | 5 | 14 | - | 2 | 22 | 1 | 5 |
| Laçın | - | - | 8 | 3 | - | 3 | 47 | 3 | 9 |
| Qubadlı | - | - | 11 | 5 | - | - | 22 | 2 | 2 |
| Zəngilan | - | - | 3 | 5 | - | 4 | 6 | 1 | - |

**Mənbə:** Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəsmi internet saytı. https://www.stat.gov.az/

**Qeyd:** 07 iyul 2021-ci il tarixli Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə dəyişiklik edilmişdir.

Turizmin inkişafının əsas istiqamətləri və iqtisadi potensialın gücləndirilməsində iştirakı istehlakçı seqmenti ilə yanaşı, sosial-demoqrafik xüsusiyyətlərlə də müəyyən edilir. Turizmin inkişafı həm də turizmə müasir yanaşma, həyat səviyyəsi və cəmiyyətin dünyəvi təbiəti ilə müəyyən edilir. Turizm dünyanın ən sürətlə inkişaf edən sahəsidir. Dünyada baş verən digər proseslərlə

birlikdə: insanların, kapitalın, texnologiyanın beynəlxalq miqrasiyası, turizmin inkişafını hər il genişləndirir.

İşğaldan azad edilmiş hər bir ərazinin nəhəng turizm potensialı var və azad edilmiş ərazilərdə itirilmiş infrastruktur kommunikasiyalarının bərpası ilə turizmin inkişafı da daxil olmaqla biznes üçün əlverişli şəraitin yaradılacağı gözlənilir.

Prezident İlham Əliyev 2020-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş videokonfrans zamanı öz nitqində bildirmişdir ki, Qarabağ bölgəsi turizm üçün çox zəngin potensiala malikdir. Buna görə də, burada turizm marşrutları turizm sektoru inkişaf edə biləcək şəkildə dizayn edilməlidir. Bu bölgələrə qayıtdıqdan sonra dayanmağa vaxt olmayacaq. Pandemiyadan sonra bərpa olunacaq beynəlxalq turizm sərgiləri Qarabağ bölgəsinin turizm potensialını, turizm marşrutlarını, tarixi abidələri və beynəlxalq turizmi nümayiş etdirmək üçün bir fürsət olacaqdır.

Qarabağ bölgəsinin çox zəngin, füsunkar, bənzərsiz təbiətə və tarixi abidələrə malik olduğunu nəzərə alsaq, əminəm ki, bura Azərbaycanda əsas turizm mənbəyi olacaqdır (Prezident İlham Əliyevin nitqindən, 2020).

İşğaldan azad olunmuş ərazilərin belə yüksək turizm potensialının olması burada turizm sığortasının təşkili məsələsini də gündəmə gətirmiş olur. İstər daxili, istərsə də xarici turistlərin səbrsizliklə buraya səfər etmək istədiklərini nəzərə alsaq, mövcud risklərin təhlil edilməsi vacib amilə çevrilmiş olur.

İlk öncə burada tətbiq olunacaq turizm sığortasının turizmin növləri üzrə ayrılmasını nəzərə almaq lazımdır. Çünki fərqli turizm növləri fərqli risklər və hadisələrin mövcudluğunu ehtiva etmiş olur.

**Cədvəl 6: Turizmin təsnifatı**

| Təsnifat prinsipi | Turizmin növü |
|---|---|
| Səyahətin coğrafiyası | Daxili<br>Xarici(beynəlxalq) |
| Maliyyə mənbəyi | Kommersiya<br>Sosial |
| Nəqliyyat növü | Atla<br>Velosipedlə<br>Avtoturizm<br>Dəmir yolu iə<br>Dənizlə<br>Çayla<br>Aviasiya ilə<br>Qarışıq |
| İştirakçıların sayı | İndividual<br>Ailəvi<br>Qruqla |
| Təşkilatlanma formasına görə | Təşkilatlanmış<br>Təşkilatlanmamış(spontan) |

**Mənbə:** Hüseynov İ., Əfəndiyev N. (2007) əldə edilən məlumatlara əsasən müəllif tərəfindən hazırlanmışdır

Regionun müxtəlif turizm istiqamətləri üzrə potensialı çox yüksəkdir. Təhlillər vasitəsilə bir neçə istiqaməti nəzərdən keçirək.

Yüksək potensiala malik turizm istiqamətlərdən biri də termal turizmdir. Bu turizm istiqaməti xəstələrin sağlamlıqları üçün geotermal bulaqlardan yararlana bildiyi, həmçinin cəlbedici yerlərdə istirahət edə biləcəyi müalicəvi turizm növüdür. İşğaldan azad edilmiş ərazilərin mütləq əksəriyyətində çoxlu mineral suların olması turizmin bu növünün inkişafına imkan verəcək (https://www.azerbaijan.az).

İnkişaf etdirilməsi Qarabağ və ətraf ərzilər üçün böyük potensiala malik olan turizm istiqamətlərindən biri də, eko turizmdir. Son illərdə hər zamankindən daha çox insan təkrar emala, plastikdən istifadəni azaltmağa, yerli məhsulları satın almağa və daha yaxşı qidalanmağa, enerji və suya qənaət etməyə və ümumiyyətlə ekoloji cəhətdən təmiz elementləri gündəlik həyatlarına daxil etməyə çalışır.

Qeyd edək ki, Qarabağın və işğaldan azad edilmiş ətraf ərazilərin əlverişli iqlimi və relyefi sayəsində ekoloji, dağ, qış, ekstremal və sağlamlıq turizminə qədər müxtəlif turizm növlərini inkişaf etdirmək mümkündür.

İstər qış, istərsə də dağ-ekstremal turizm növünün inkişafı üçün işğaldan azad edilmiş regionlarda böyük potensial vardır. Bu növ turizmin ölkəmizdə son illərdə

inkişafı və turistlərin marağı mövcud sahənin iqtisadi cəhətdən də rentabelli olacağını söyləməyə imkan verir.

Qarşıda duran prioritetlərin həyata keçirilməsi və turistlərin bu bölgəyə cəlb edilməsi, səyahətin təhlükəsizliyinin təminatı olaraq turizm sığortasının çıxış edəcəyini söyləmək olar. İşğaldan azad olunmuş ərazilərdə sığortalanmanın vacibliyini göstərən bir sıra səbəblər var:

- Müxtəlif ekstremal turizm istiqamətləri üzrə potensialın olması;
- Post müharibə və bərpa dövrünün yaşanması;
- Mənfur düşmənlərimizin illərlə talançılıq və soyunçuluq siyasəti;
- Ərazilərin minalanması;
- Düşmən tərəfində diversiya və terrorçuluğa təşəbbüslərin olması.

Bir sözlə, mövcud problemlərin aradan qaldırılması işğaldan azad edilmiş ərazilərdə turizmin və turizm sığortası üzrə dövlət siyasətinin tətbiqi ən vacib məsələlərdən biridir. Turizm sığortası sahəsində dövlət siyasətinin əsas məqsədi müasir şərtlərə və beynəlxalq hüquqa uyğun olaraq tənzimləmə bazasının təkmilləşdirilməsidir. Eyni zamanda əlavə qanunvericilik aktlarının qəbulu və tətbiq edilməsi zəruridir.

# II FƏSİL. TURİZM SIĞORTASININ İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRİN İNKİŞAFINDA ROLU

## 2.1. İşğaldan azad edilmiş ərazilərdə turizm sığortasının formalaşdırılmasının mexanizmləri

İqtisadiyyatın, elm və texnikanın ayrı-ayrı sahələrinin inkişafı ilə daha çox müxtəlif həyat vəziyyətləri üçün müəyyən qoruyucu mexanizmlərin yaradılmasına artan ehtiyac var. Bəzən bu müdafiə mexanizmləri güllələrdən qoruyan bədən zirehləri kimi bəzi xüsusi fiziki əşyalar, və ya küləkdən qoruyan pəncərə şüşəsi ola bilər. Ancaq bu mexanizmlər həmişə tab gətirə bilməyə və onlara görə bir sıra itkilərə yol aça bilər. müxtəlif sferada olan sahibkarlar bu itkiləri çox vaxt kompensasiya edə bilmir. Bunun üçün sığorta icad edilmişdir, hər hansı gözlənilməz hallar baş verdikdə fiziki və hüquqi şəxslərin müxtəlif risklərdən müdafiəsi onun əsas vəzifələrindən biridir.

Bir çox ölkələrin sərhədləri elm və texnikanın inkişafı ilə səyahətçilərə açıldığı üçün dünya turizmi aktiv şəkildə inkişaf etdirməyə başladı, turistlərin sayı getdikcə artdı. Əvvəllər səyahət sığortası çox nadir hallarda istifadə olunurdu, məsələn, səyahət edənlər üçün həyat və sağlamlıq sığortası xüsusilə təhlükəli ərazilər və ya ekstremal turizm növlərində tətbiq oluna bilərdi. Bununla belə, son zamanlar səyahət sənayesi mütəxəssisləri kömək üçün getdikcə daha çox sığortaçılara müraciət edirlər. Hazırda turizm sahəsində bir neçə əsas sığorta növü mövcuddur (Толкачева О.П., s 156).

Sığorta obyektinə görə ən çox istifadə olunanları aşağıdakı növlərə bölmək olar:

- Vətəndaşların (turistlərin) risk sığortası;
- Turizm təşkilatlarının risk sığortası.

Aydın məsələdir ki, bunlar turizm sənayesində baza sığorta növləri kimi qəbul oluna bilər. İşğaldan azad edilmiş ərazilərdə turizm sığortasının formalaşdırılmasının mexanizmləri tərtib olunarkən ilk öncəbu baza növlər tələb olaraq qoyulmalıdır.

Bu sığorta növləri könüllü və icbari şəkildə həyata keçirilə bilər, sğorta hadisəsi nəticəsində iki hal həyata keçiriləcəkdir:

1. Kompensasiya
2. Xidmət (yardım).

Kompensasiya sığortası səyahətçinin ödənişini təmin edir. Bu zaman bütün xərclər və onların ödənilməsi yalnız öz ərazilərinə qayıtdıqdan sonra həyata keçirilir ki, bu da bir qayda olaraq əlverişsizdir. İşğaldan azad edilmiş ərazilərdə turizm sığortasının formalaşdırılmasının mexanizmləri hazırlanərkən məhz bu faktın nəzərə alınması turistlər üçün bu regionun əhəmiyyətini artıra bilər.

Xidməti səyahət sığortası ilə müqavilə bağlandıqda turistin sığorta şirkətinin göstərilən dispetçer xidmətlərindən birinə zəng etməsi kifayətdir.

İşğaldan azad edilmiş ərazilərdə turizm sığortasının formalaşdırılmasının mexanizmləri tərtib olunarkən mövcud risklər üzrə turizm sığorta növlərinin qruplaşdırılması vacibdir. Vətəndaşların (turistlərin) sığortasına işğaldan azad edilmiş ərazilərdə turizm sığortasını formalaşdırarkən aşağıdakı növlər daxil edilməlidir:

1. Turist sığortası. Bu sığorta növü ilk növbədə demək olar ki, hər kəs üçün məcburi hala gələn səyahət edən turistlərin sağlamlıq sığortasıdır. Fakt budur ki, hazırda bütün ölkələr bu siyasəti tələb etmir. Lakin işğaldan azad edilmiş ərazilərdə turistlər üçün hələ bir müddət yüksək riskə malik ərazilər olaraq qalacağını nəzərə alsaq, səyahətçilərə bu növ sığortanın istifadəsini tətbiq etmək labüddür.

Ölkəmizdə daxili turizmdə sığortanın olmaması, xarici turizmdə isə pərakəndə olması işğaldan azad edilmiş ərazilərdə turizm sığortasının formalaşdırılmasında mövcud əngəllərdəndir. Ancaq gələcəkdə heç bir turizm agentliyi bu siyasət olmadan işğaldan azad edilmiş ərazilərdə turist göndərməsə tez bir zamanda düzgün mexanizm qurmaq mümkün olacaqdır.

Dünyada bu növ sığorta xidmətlərində aşağıdakı müavinət növləri tətbiq olunur:

- təcili tibbi yardımın göstərilməsi;

- dərman vasitələrinin alınması;
- xəstənin daşınması;
- meyitin repatriasiyası.

İşğaldan azad edilmiş ərazilərdə turizm sığortasının formalaşdırılmasının mexanizmləri tərtib olunarkən sığorta müavinətinin dəyəri sığorta məbləğindən, burada qalma zamanından asılı olacaq və səfərin müddətindən asılı olaraq tarifləşdirilə bilər. Orta hesabla sığortanın qiymətinin eyni olması onun turist hesabına ödənilməsinə səbəb olmuş ola bilər.

2. Turist əmlakının sığortası. İşğaldan azad edilmiş ərazilərdə turizm sığortasının formalaşdırılmasının mexanizmləri tərtib olunarkən bu sığorta müqaviləsini turistin özü ödəyə, könüllü həyata keçirilə və hamıya şamil edə bilər. Sığortanın dəyəri yenə də səfər müddətindən, sığorta məbləğindən asılı olub, müqavilənin bağlanması zamanı səyahətçi tərəfindən seçilə bilər, lakin baqajın dəyərindən artıq ola bilməz. İşğaldan azad edilmiş ərazilərin uzun müddət riskli olaraq qalması bu növ sığortanın tətbiqini vacib edir.

3. İşğaldan azad edilmiş ərazilərdə turistlərin məsuliyyətinin sığortası. Bu siyasət turistlərin mülki məsuliyyətini qorumaq üçün nəzərdə tutulub . Eyni zamanda, "yaşıl kart" üçün etibarlıdır (Толкачева О.П., 2011, s 156).

4. İşğaldan azad edilmiş ərazilərdə turistlərin bədbəxt hadisələrdən sığortası. Bu sığorta səyahət sığortası növü ilə oxşardır. Əsas fərq sığorta hadisəsinin müəyyən olmasıdır. Bu halda sığorta məbləğləri aşağıdakı növ xidmətlərin xərclərini ödəyə bilər:

- Müalicə;
- Dərman vasitələrinin alınması;
- Xəstənin daşınması;
- Meyitin repatriasiyası.

5. Səyahətin ləğvi sığortası. Həm də kifayət qədər yayılmış sığorta növüdür, səfərin ləğv ilə bağlı xərcləri kompensasiya etməyə imkan verir. Nəzərə alsaq ki, işğaldan azad edilmiş ərazilər uzun müddət yüksək riskli ərazilər qrupuna aid

ediləcək bu növ sığortanın mexanizmə daxil edilməsinə çalışılmalıdır. Sığorta hadisələrinə daxildir:

- sığortalının və ya onun yaxın qohumlarının ölümü və ya xəstəliyi, xəsarət alması(arvad, ər, ata, ana, uşaqlar, qardaşlar, yaxın qohum);
- sığorta olunanın məhkəmə icraatında məcburi iştirakı, müqavilənin qüvvədə olduğu müddətdə məhkəmə qərarının olması;
- sığorta müqaviləsinin qüvvədə olduğu müddət ərzində yaranan yanğın nəticəsində sığortalının əmlakının zədələnməsi və ya itməsi;
- sığorta olunanın müddətli hərbi xidmətə və ya hərbi təlimə çağırılması;
- sığorta olunanın xəstəliyə görə vaxtından əvvəl qayıtması və ya yaxın qohumların ölümü;
- hərbi komissarlıqdan çağırış vərəqəsinin alınması və.s.

Sığortalanma zamanı səfərin ləğvi ilə əlaqədar xərclərin ödənilməsi mexanizminə aid edilir:

- səyahət sənədlərinin ləğvi ilə bağlı itkiləri kompensasiya etmək;
- bron edilmiş otağın ləğvi ilə bağlı itkilərin ödənilməsi üçün və habelə müqavilə ilə nəzərdə tutulmuş və haqqı ödənilən digər turizm xidmətlərini kompensasiya etmək (Камышанова Е.А. 2008, s, 10).

Turoperatorların işğaldan azad edilmiş ərazilərdə turizm sığortasının formalaşdırılmasının mexanizmləri tərtib olunarkən öhdəliklərinin yerinə yetirilməməsinə görə məsuliyyət sığortasının xüsusiyyətləri və turizm məhsulunun satışı müqaviləsi üzrə öhdəliklərin lazımınca yerinə yetirilməməsi də nəzərə alınaraq qeyd edilməlir:

- mövcud qanunvericiliyə uyğun olaraq öz riskinin sığortalanması müqavilənin yerinə yetirilməməsi / lazımınca yerinə yetirilməməsi üçün sığortalı (turoperator) tərəfindən öz hesabına məsuliyyət daşımalı;
- mülki məsuliyyətin sığortası müqaviləsinə vaxtından əvvəl xitam verilə bilməz;
- sığorta müqaviləsində françayzinqin yaradılması nəzərdə tutulmur.

Ancaq bütün qeyd olunanlardan əlavə olaraq işğaldan azad edilmiş ərazilərdə turizm sığortasının formalaşdırılmasının mexanizmləri tərtib olunarkən turistlərin mənafelərinin dövlət tərəfindən qorunması üçün müəyyən tədbirlər görülməsi də nəzərə alənmalıdır. Bu tədbirlər ümumi olaraq aşağıdakı halları əhatə edə bilər:

- sığorta məbləği iddia edilən bütün zərərləri ödəməyə kifayət etmədikdə;
- turistlər dəymiş bütün ziyanı sübut edə bilmədikdə;
- itkilərin ödənilməsi üçün çox mürəkkəb prosedur olduqda;
- gəliş ölkəsində həlli mümkün olmayan problemlər.

Beləliklə, hələki gələcəkdə işğaldan azad edilmiş ərazilərdə bir sıra turizm sığortası xidmətləri bazarının inkişaf etməməsi üçün müxtəlif obyektiv səbəblər mövcuddur:

- turizm sığortası sahəsində qanunvericilik bazasının demək olar ki, olmaması;
- turizm xidmətləri bazarının mükəmməl olmaması;
- ölkə daxili turizmdə qoruyucu mexanizmlərin olmaması.

Turizm sığortasının olmaması İşğaldan azad edilmiş ərazilərdə turizmin gələcək inkişafına mənfi təsir göstərən amillərdən olacaqdır. Bununla əlaqədar hökumətin qarşısında duran əsas vəzifələr bunlardır:

1) turizm sahəsində qanunvericilik bazasının daha da təkmilləşdirilməsi və turizm sığortasının tətbiqinin məcburiliyi;
2) turizm müəssisələrinin sferanın optimallaşdırılması proseslərinə fəal cəlb edilməsi, dövlət-özəl tərəfdaşlığın yaradılması yolu ilə işğaldan azad edilmiş ərazilərdə turizmin inkişaf etdirilməsi;
3) həm ölkə daxili, həm də xaricdən gələn turistlər üçün qoruyucu mexanizmlərin yaradılması;
4) turizm sığortası iştirakçılarının, sənaye müəssisələri, dövlət və sığorta şirkətləri fondlarının stabilləşməsinin formalaşması mexanizmlərinin işlənib hazırlanması (Камышанова Е.А. 2008.s, 12).

İşğaldan azad edilmiş ərazilərdə turizm üzrə bu fəaliyyətlərin həyata keçirilməsi hər iki tərəfdən ciddi səylər tələb edəcəkdir. Dövlət və sahibkarlar tərəfindən də bu proses kifayət qədər uzun zaman və fəaliyyət tələb etsə də, işğaldan azad edilmiş ərazilərdə turizmin mükəmməl formalaşdırılması və daha rentabelli olmasına səbəb olacaqdır.

Təklif olunan tədbirlərin həyata keçirilməsi istiqamətlərindən biri də işğaldan azad edilmiş ərazilərdə turizm sahəsində özünütənzimləyən təşkilatların yaradılmasıdır.

## 2.2. İşğaldan azad olunmuş ərazilərdə tətbiq olunacaq turizm sığorta qaydalarının təhlili

Bu gün turistlərin və turoperatorların sığorta müdafiəsi sahəsində hüquqi və iqtisadi xarakterli çoxsaylı problemlər vardır. Turizm sektorunun sıçrayışlı inkişafını vəd edən işğaldan azad edilmiş ərazilərin potensialı bu problemi və onun həlli üzrə bır sıra qaydalar toplusunun təhlilini aktual edir.

Turoperatorların məsuliyyət sığortası mövzusu ölkəmiz üçün yenidir və buna görə də bütövlükdə sığorta bazarı və turistlər çoxsaylı çətinliklərlə üzləşə bilər. Bunlar təkcə Qanunun müddəalarına uyğun gəlməməsi ilə, xüsusən də sığorta hadisəsi sığortaçının qəsdən hərəkətləri nəticəsində baş vermiş olsa belə, Qanunun sığortaçının məsuliyyətini nəzərdə tutması ilə bağlıdır. Turoperator və ya turagent və qanun, əksinə, imperativ norma sığortalının və faydalanan şəxsin niyyəti ilə sığortaçının məsuliyyətini istisna edir. Pərakəndə şəkildə aparılan fəaliyyət qaydaların tətbiq olunmaması ilə praktikada bu, aşağıdakıları ifadə edəcədir:

- Vicdansız turoperatorların qəsdən hərəkətlərindən əziyyət çəkən insanlar sığortaçılara müraciət edəcəklər.
- Sığortaçı itkiləri ödəməyə razı olarsa, vergi orqanlarının bu ödənişləri sığorta ödənişi kimi tanımayacağı və tamamilə haqlı olaraq xalis gəlir hesabına ödəməsini tələb etmə riski ilə qarşılaşacaqdır.

- Sığorta şirkəti (turistlər hüquqi şəxs tərəfindən göndərilibsə) və vətəndaş da vergi məqsədləri üçün sığorta ödənişlərinin tanınmasında oxşar problemlərlə üzləşəcəkdir.

Bazarın hələ tam hiss etmədiyi ikinci mühüm məqam isə odur ki, “Turizm fəaliyyətinin əsasları haqqında” Qanun elə qurulub ki, sığortaçının bir sığorta hadisəsi üzrə məsuliyyət limiti olmasın. Sığorta məbləği tükəndikdə və ya azaldıqda, sığorta məbləğinin bir ay ərzində bərpası qanunda nəzərdə tutulub. Ancaq digər tərəfdən, bir hadisə ilə bağlı heç bir məhdudiyyət yoxdur (Ə.Q.Əlirzayev, 2010, s 87).

Növbəti məqam “Turizm fəaliyyətinin əsasları haqqında” Qanunda işğaldan azad olunmuş ərazilərdə tətbiq olunacaq turizm sığorta qaydalarının bir sıra mühüm şərtlərin ciddi şəkildə müəyyən edilməsindən, o cümlədən sığorta müqaviləsində bu qanunda müəyyən edilmiş maliyyə təminatının məbləğinin göstərilməli olmasından gedir. Sığorta müqaviləsində başqa məbləğ göstərmək mümkün deyil, o vaxtdan formal əsaslarla müqavilə etibarsız sayılmış olmuş olacaq.

İşğaldan azad olunmuş ərazilərdə tətbiq olunacaq turizm sığorta qaydalarının turoperatorların sığortası sahəsində bir sıra problemlər sığorta müqaviləsinin bank təminatına münasibətdə alternativ, rəqabət aparan alət olması ilə bağlıdır. Zəmanət məsələləri o qədər də sadə deyil və bu problem səyahət sığortasından çox kənara çıxır.

Formal olaraq mövcud bütün qaydalarda, zəmanətin verilməsi lisenziyaya ayrıca sığorta fəaliyyəti növünün daxil edilməsini tələb etmir, lakin bütün bunlardan sonra sığortaçı öz üzərinə öhdəlik götürür, bu isə o deməkdir ki, bu öhdəlik üzrə bəzi aktivlər formalaşmalıdır, əks halda o, maliyyə cəhətdən müflis olmaq təhlükəsilə üzləşə bilər.

Turizm qlobal bir fenomen kimi bu gün həm iqtisadi cəhətdən inkişaf etmiş, həm də inkişaf etməkdə olan ölkələrdə öz sürətli inkişafını tapır. Turizmin formalaşması cəmiyyətin inkişafı ilə eyni vaxtda baş verir, yəni insanların istək və ehtiyacları ilə əvvəlcədən müəyyənləşir. Buna görə də turizm sektorunun

keyfiyyətcə inkişafı üçün onun tərkib hissələrinin elementləri ilə onun inkişafında dominant rola malik olan amillər arasında sıx əlaqənin müəyyən edilməsi üçün turizm anlayışına kompleks, sistemli yanaşma tələb olunur.

Nəzərə almaq lazımdır ki, turizm təkcə sosial-mədəni deyil, həm də iqtisadi amilləri əhatə edir. Bu gün turizm dünyanın ümumi daxili məhsulunun 10%-ə qədərini tutan güclü qlobal sənayeyə çevrilib, buraya nəhəng işçi kütlələri, əsas vəsaitlər cəlb olunub, iri kapital cəlb olunub. Bu, böyük biznes, böyük pul və ciddi qlobal siyasətdir.

Bunun əsasında belə nəticəyə gəlmək olar ki, "turizm" anlayışı ümumi qəbul edilən anlayışdan daha genişdir.

Turizm sisteminə münasibətdə deyə bilərik ki, bu, turizm sektorunda baş verən münasibətlərin və hadisələrin məcmusu və birliyidir. Turizm sistemi iki alt sistemə əsaslanır:

- turizmin subyekti
- turizmin obyekti.

Turizmin inkişafına mənfi təsir göstərən məhdudlaşdırıcı amillərə aşağıdakılar daxildir:

- böhranlar;
- iqtisadiyyatın militarizasiyası;
- xarici borcun artması;
- siyasi qeyri-sabitlik;
- istehlak mallarının qiymətlərinin artması;
- işsizlik;
- tətillər;
- ekoloji problemlər;
- turizm şirkətlərinin müflisləşməsi;
- turistlərin rəsmiləşdirilməsinin sərtləşdirilməsi;
- turizmin azaldılması;
- valyuta mübadiləsi kvotaları;

- turizm agentliklərinin öz öhdəliklərini yerinə yetirməməsi və s (Тюрин А.. 2015, s 121).

Turizmdə sığortanın həyata keçirilməsi qaydalarında sığortaçıların rolu son dərəcə vacibdir, çünki turistlərin həyat və sağlamlıq sığortası üzrə böyük təcrübəyə malikdirlər, müvafiq olaraq şirkətlərdə qanun layihəsi çərçivəsində məhsul hazırlaya bilən mütəxəssislər var və onlar da turoperatorlarla işləmək daha çox maraqlıdırlar. Bu və ya digər zərərin ödənilməsi sığorta şirkətlərinin işidir. Ona görə də sığorta bazarının nümayəndələri turoperatorların məsuliyyətini öz üzərinə götürürlər (F.İ.Qurbanov, 2007).

Bank zəmanəti və ya mülki məsuliyyətin sığortası formasında turoperator fəaliyyətinin maliyyə təminatı mexanizmi istehlakçıların hüquqlarını qorumaq üçün nəzərdə tutulub.

Beləliklə, belə qənaətə gəlmək olar ki, İşğaldan azad olunmuş ərazilərdə tətbiq olunacaq turizm sığorta qaydalarının təhlili və hazırlanması aparılarkən hazırda turoperatorların sığortasında xeyli problemlərin varlığı nəzərə alınmalıdır. Buna baxmayaraq, şübhəsiz ki, işğaldan azad olunmuş ərazilərdə bərpa və yenidən qurma işləri turizm sənayesi bazarında müəyyən dəyişikliklərin baş verməsinə səbəb olacaq (Гвозденко А. А 2010, s 97).

Bu sığorta növü qanuni olaraq tətbiqi ölkədə həm də turizm sənayesinin sığorta bazarında yeni oyunçuların meydana çıxmasına imkan verəcək. Bu proseslər öz növbəsində işğaldan azad olunmuş əraziləri istər daxili turistlər, istərsə də xarici turistlər üçün cəlbedici edəcəkdir.

## 2.3. Turizm sığortası üzrə mövcud xarici təcrübənin öyrənilməsi

Xarici ölkələrin turizm sığorta bazarı daha dolğun və uzunmüddətlidir, hal-hazırda bizim ölkə sığortanın mövcudluq tarixi və maraqların qorunması üçün ilkin mərhələni adlamaqdadır. Dünya praktikasını öyrənmək, səyahət sığortasının tətbiqi, şübhəsiz ki, səyahət sığortasının seqmentinin inkişafı üçün faydalı və aktual olacaqdır.

Avropa təşkilatı dövlətlərinin qanunvericilik aktlarında turistin öhdəliyinin məcburi maliyyə təminatı haqqında müddəalar çoxdan var.

13 iyun 1990-cı ildə Avropa Birliyi çərçivəsində Direktiv qəbul edildi, bu direktiv turist xidmətlərinin istehlakçısı ilə müqavilə bağlamış turist xidmətlərinin təşkilatçısını və ya satıcısını"İstehlakçı tərəfindən ödənilmiş pulun geri qaytarılmasını təmin edən qənaətbəxş sübut təqdim etmək, o cümlədən istehlakçının repatriasiyası ilə bağlı xərclərin təşkilatçının və/və ya satıcının müflisləşməsi (iflas) halında ödənilməsi" ilə bağlı məsələləri öhdəsinə götürməyi labüd edirdi.

Avropa dövlətlərinin turizm sığortası qanunvericiliyinin əsas anlayışları bunlardır:

- turist təşkilatlarının məsuliyyətinin sığortası müqaviləsi
- bank zəmanətləri
- etimad(etibar) hesabları,
- bank depozitləri,
- zəmanət fondları və ya zəmanətlər

Hazırda dünya turist sığortası təcrübəsində sığortaçıların fəaliyyətində illər keçdikcə güclənən universallaşma və ixtisaslaşma tendensiyanı izləmək olar. Xüsusi olaraq sığortanı həyata keçirən turizm şirkətlərinin fəaliyyəti inkişaf etmiş ölkələrdə geniş yayılmışdır.

Sığorta təşkilatının bu modeli turistlərin maraqlarının qorunmasını, yüksək keyfiyyətli xidmətlər göstərməyə imkanın verilməsini və iştirakçıları arasında daha güclü və davamlı əlaqələr qurulmasını təmin edir.

Belə şirkətlərə misal olaraqsəyahət sığortası və səyahət yardımı üzrə ixtisaslaşmış Mondial Assistance Group (Fransa) göstərilə bilər. 2011-ci ildə şirkətin gəliri 2,054 milyon avro (əvvəlki ilə nisbətən +8,5%), xalis mənfəət isə - 62,3 milyon avro təşkil edib.

Şirkətin işçi heyəti 10920 nəfərdir. Şirkət 2000-ci ildə təsis edilib və 5 qitədə 29 ölkədə ofisləri var (http://unwto.org/).

Seven Corners Inc şirkəti 1993-cü ildə yaradılmışdır, Şimali Amerikada turistlərə sığorta xidmətlərinin göstərilməsi və təklif edilməsi üzrə ixtisaslaşmışdır. Şirkət müştərilərə hərtərəfli sağlamlıq sığortası, minlərlə şəbəkəyə giriş, beynəlxalq xəstəxanalar, turistlər üçün daimi mühafizə təklif edir.

Böyük Britaniyada ən böyük ixtisaslaşmış səyahət sığortası və təcili yardımın göstərilməsi üzrə sığorta şirkəti Travel Guard 1982-ci ildə yaradılmışdır.

Xarici ölkələrdə turizm üzrə sığorta xidmətlərinin siyahısı çoxşaxəlidir. Şirkətin xaricə səyahət edənlər üçün sığortanın əhatə etdiyi ən ümumi riskləri bunlardır:

- tibbi (təcili və stasionar yardım), o cümlədən stomatoloji xərclər;
- evakuasiya (tibbi evakuasiya, repatriasiya);
- səfərin ləğvi / dayandırılması;
- qəza;
- gediş gecikməsi;
- itirilmiş, oğurlanmış və ya zədələnmiş baqaj, şəxsi əşyalar və ya səyahət biletləri
- sənədləri;
- hüquqi yardım;
- avtomobil icarəsi ilə bağlı risklər;
- ekstrimal idman növləri;
- təbii fəlakətlər;
- Terror aktı;
- turist oğurluğu və.s.

İstisnalara aşağıdakılar daxildir:

- əvvəllər mövcud olan xəstəlik, zədə.
- alkoqol və ya narkotik istifadəsi nəticəsində yaranan xəstəliklər (http://www.gks.ru).

Səyahət sığortası səyahətinizdə maliyyə sərmayəsini də sığortalayır. Adətən,

o, itirilmiş baqaj və uçuşun ləğvi kimi xərcləri əhatə edir. Məsələn, USA-ASSIST bazarda 30 illik təcrübəyə malik aparıcı şirkətdir, o, aşağıdakı səyahət sağlamlıq sığortası proqramlarını təklif edir:

- 12 500 ABŞ dollarına qədər, "aşağı qiymətli" sığorta kimi təklif olunur;
- 25.000 ABŞ dollarına qədər, beynəlxalq tibbi və təcili yardım, o cümlədən evakuasiya üçün təkliflər;
- 60.000 ABŞ dollarına qədər xaricə gedən iş adamları və turistlər üçün təklif olunur.( 84 yaşa qədər insanlar üçün təflif olunur);
- uzaq məsafəyə və sağlamlıq riski yüksək olan ölkələrə səyahət edənlər üçün 150.000 ABŞ dollarına qədər sığorta təklif olunur (74 yaşa qədər insanlar üçün nəzərdə tutulub);
- 500.000 ABŞ dollarına qədər, hər bir işin xərclərini ödəmək üçün nəzərdə tutulmuşdur (69 yaşdan kiçik insanlar üçün nəzərdə tutulub).

Səyahət tibbi sığortası ilə bağlı qeyd etmək lazımdır ki, bəzi ölkələr məsələn Fransa, Almaniya bunu məcburi edir.

Belarus Respublikasında və Qazaxıstanda şəxsi səyahət sığortası yalnız müvəqqəti yaşayış ölkəsi tərəfindən tələb olunduğu hallarda məcburitətbiq edilir. Bundan əlavə, Belarus Respublikasında əsasən məcburi tibbi xidmət tətbiq edilmişdir. Bunun üçün bütün xarici vətəndaşlarla tibbi sığorta müqaviləsi olmalıdır.

Ukraynada qəza sığortası və tibbi sığorta turistin qəbul etdiyi ölkənin qanunvericiliyinin tələblərindən asılı olmayaraq həyata keçirilir. Üstəlik, turist həm də turistik agentlik vasitəsilə sığorta müqaviləsi bağlaya bilər.

Dünyanın bir çox ölkələrində tur operatorları üçün Peşəkar Məsuliyyət Sığorta Fondu yaradılmışdır. İsveçrədə, Çexiyada, Almaniyada hökumət adından belə fondlar, ictimai birliklər var.

İsveçin ən böyük səyahət sığortası şirkətlərindən biri 1920-ci ildə qurulan EVR-dir. Şirkətin filialları bütün Avropada fəaliyyət göstərir. Şirkət hər il xaricdə 2 milyon fərdi turisti, 1,5 milyon işgüzar səyahətçisini və 15 min insanı sığortalayır. Maksimum mümkün kompensasiya məbləği 25.000 İsveçrə frankıdır.

**Cədvəl 7: Turizm sığortası üzrə mövcud xarici təcrübə**

| Ölkə | Şirkət | Xidmətin göstərilmə şərtləri | Proqramlar |
|---|---|---|---|
| İsveç | EVR | Sığorta yaşı 70-dən aşağı olan şəxsləri əhatə edir. | İllik sığorta proqramı sabit qiymətə il ərzində qeyri-məhdud sayda səfərlər üçün etibarlıdır. |
| | | | Alkoqolun təsiri nəticəsində xəsarətlər və ya kəskin xəstəliklər; planlaşdırılmış prosedurlar və onların nəticələri; 32 həftədən sonra hamiləliklə əlaqəli ağırlaşmalar olduqda sığorta ödənişləri həyata keçirilmir |
| Serbiya | Delta Generali | Sığorta 6 aydan 86 yaşa qədər olan yaşları əhatə edir | Proqramlar bir şəxsin, bir qrup insanın, ailənin sığortası kontekstində təqdim olunur. |
| Fransa | ACS | Maksimum sığorta yaşı 70 ildir. | Proqramlar səyahət ölkələri kontekstində, müvafiq şərtlər təklifi ilə təqdim olunur. Sığorta məhsulları xarici vətəndaşlara, yaşı 65-dən aşağı olan bütün millətlərdən olan şəxslərə təklif olunur. |
| İtaliya | Europ Assistance | Maksimum sığorta yaşı 70 ildir. | Səyahət sığortasının həyata keçirilməsi üçün geniş çeşiddə xidmətlər, məhsullar və proqramlar təqdim edir |
| İspaniya | Intermundial | Sığorta 70 yaşına çatmamış şəxslərə şamil edilir | Müxtəlif səyahətlər, səyahət şirkətləri, fərdi sığorta proqramları üçün məhsullar təqdim edir. |

**Mənbə:** World Tourism Organization UNWTO. http://unwto.org/.

Delta Generali 1998-ci ildə əsası qoyulmuş Monteneqronun sığorta bazarının aparıcı iştirakçılarından biridir, həyat sığortası, könüllü tibbi sığorta və beynəlxalq səyahət bazarlarında lider mövqeyini saxlayır, 2 milyona yaxın müştəriyə xidmət göstərir və 60-dan çox ölkədə fəaliyyət göstərir.

ACS (Fransa) şirkəti son 20 il ərzində səyahət edən insanlar üçün proqramların hazırlanması və idarə olunması üzrə ixtisaslaşmışdır.

Europ Assistance bütün dünyada tanınmış şirkətdir, 300 milyona yaxın insana xidmət göstərir, dünya üzrə 38 filialı var. İtaliyada 40 ildir, səyahət sığortası üzrə ixtisaslaşmışdır. Maksimum mümkün kompensasiya məbləği 60 min avroya çata bilər.

Intermundial (İspaniya), 1993-cü ildən fəaliyyət göstərir, əsas məqsədi turizm sektoru üçün məhsullar yaratmaq və inkişaf etdirməkdir (Писаревский Е.Л. 2004, s 45).

Şirkət turoperatorların, turizm agentliklərinin, mehmanxanaların, düşərgələrin, aviaşirkətlərin, turistlərin və s. ehtiyaclarını ödəmək üçün xüsusi proqramlar hazırlayır.

Intermundial ISO 9001:2000 keyfiyyət sertifikatını alaraq və bununla da şirkətin bütün biznes proseslərinin fəaliyyətinin bütün mərhələlərində ciddi keyfiyyət nəzarətindən keçdiyini sübut etdi. Sığorta məhsullarının qiymətləri sığorta müddətindən asılı olaraq 15 avro ilə 250 avro arasında dəyişir.

Bir çox Avropa ölkələrinə viza almaq üçün səyahətin bütün müddəti üçün etibarlı sığorta polisi tələb olunur. Sığorta polisinin olması viza verərkən bir çox ölkələrin konsulluqlarının tələbidir. Vizaların verilməsi proseduru qəbul edən ölkənin qanunvericiliyi ilə tənzimlənir.

Aşağıdakı ölkələr xaricə səyahət edərkən sığorta polisi tələb edir: Avstriya, Belçika, Macarıstan, Almaniya, Yunanıstan, Danimarka, İslandiya, İspaniya, İtaliya, Latviya, Litva, Lüksemburq, Malta, Hollandiya, Norveç, Polşa, Portuqaliya, Slovakiya, Sloveniya, Finlandiya, Fransa, Çexiya, İsveçrə, İsveç və Estoniya.

Bir qayda olaraq, bu sığorta polisi siyasət etibarlı və ödəmə qabiliyyəti olan bir şirkət tərəfindən verilməlidir. Əgər ailə birlikdə səyahət edirsə, o zaman onun bütün üzvləri sığortalanmalıdır. Sığorta müqaviləsinə qəfil xəstəlik, səfər edilən ölkə daxilində nəqliyyat və vətəninizə qayıtma ilə bağlı xərclərin kompensasiyası daxil edilməlidir (Писаревский Е.Л. 2004, s 45).

Almaniyada xaricə gedən sığortanın hüquqi tənzimlənməsinin ən sərt rejimi mövcuddur. Orada turist sözün əsl mənasında hər şeydən sığortalanıb. Lakin 2000-ci ildə səyahət sığortasının bu üsulu tətbiq olunduqdan sonra Almaniyadan gələn turist axını Avropa İttifaqının ən yaxın ölkələrinə yenidən paylanmağa başladı. Əsas səbəb alman turoperatorlarının turizm məhsulunun baha olmasıdır.

Ona görə də ölkəmizdə turizm sahəsində sığortanın hüquqi bazası yaradılarkən turizm məhsulunun dəyəri ilə onun təhlükəsizliyi arasında ağlabatan tarazlıq tapılmalıdır (http://unwto.org/).

Turizm sənayesi ilə məşğul olan şirkət və qurumların həll etməli olduğu əsas problemlər bütün dünyada oxşardır. Aydındır ki, dünyada səyahət sığortası bazarının fəaliyyət göstərməsinin mövcud xüsusiyyəti geniş siyahıya malik ixtisaslaşmış sığorta şirkətlərinin yaradılmasından ibarətdir.

Bu sahədə göstərilən xidmətlərin effektivliyi və belə şirkətlərin uzunmüddətli fəaliyyət müddəti (10 ildən çox) ilə təsdiqlənir.

Qeyd edək ki, dünyada ən çox yayılmış turist sığortası məhsulu illik sığorta təklifidir, yəni sabit qiymətə qeyri-məhdud sayda səfərlər üçün siyasətin verilməsidir. Dünya təcrübəsində sığorta məhsullarının onlayn satışı üsulu da fəal şəkildə tətbiq olunur.

Bu gün ölkəmizdə sırf turistləri sığortalamaq və onlara yardım göstərmək üzrə ixtisaslaşmış sığorta şirkətləri yoxdur. Turizm sahəsində sığortanın hüquqi bazasını yaradarkən, turizm məhsulunun dəyəri ilə onun təhlükəsizliyi arasında ağlabatan tarazlığı tapmaq lazımdır ki, buna gedən yol bu sahədə ixtisaslaşmış sığorta şirkətlərinin yaradılmasından keçə bilər. turistlərin sığorta mühafizəsinin həyata keçirilməsində dünya təcrübəsindən istifadə olunması vacib məsələlərdəndir.

Xarici təcrübənin öyrənilməsi digər ölkələrdə baş vermiş səhvlərin təkrarlanmasının qarşısının alınması, həmçinin turizm ssığortasının ən təsirli formaları, metodları, mexanizmləri və alətlərinə qarşı dəyər yönümlərinin inkişafı üçün faydalıdır.

# III FƏSİL. İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRDƏ TURİZM SIĞORTASININ İNKİŞAF İSTİQAMƏTLƏRİ

## 3.1. İşğaldan azad edilmiş ərazilərdə turizm sığortası üzrə mövcud əsas problemlər

44 günlük müharibənin iqtisadi nəticələrinin əhəmiyyətini anlamaq üçün Ermənistan-Azərbaycan münaqişəsi nəticəsində yaranan iqtisadi problemlərə nəzər salmaq və bu problemlərin hələ nə qədər davam edəcəyini təhlil etmək istər turizm sığortasının, istərsə də digər fəaliyyət növlərinin həyata keçirilməsinin əsas meyarıdır.

Hələ işğaldan əvvəl təkcə mədənçıxarma, metallurgiya, yeyinti, emal, əczaçılıq, taxılçılıq sektorları ilə deyil, həm də turizm və rekreasiya sahəsinin inkişafının geniş potensialı ilə seçilən işğaldan azad edilmiş və ona bitişik ərazilərdə Ermənistanın işğalı nəticəsində yaranan təhlükəsizlik problemləri, o cümlədən bu ərazilərdə infrastrukturun dağıdılması indiki ilkin bərpa mərhələsində turizm sığortasının bu ərazilərdə təşkilini demək olar ki, tamamilə mümkünsüz edir (https://story.karabakh.center/ru/ekotsid-v-karabakhe).

Bu ərazilərdə turizm sığortasının tətbiq edilməsi bir neçə fəaliyyətlərin həyata keçirilməsini tələb edir. Təbii ki, işğaldan azad edilmiş ərazilərin və ətraf rayonların turizm imkanlarından tam istifadə etmək yalnız üç əsas amil təmin edildikdən sonra mümkün olacaq:

- Təhlükəsizlik;
- Əhalinin qayıdışı;
- İnfrastrukturun yaradılması.

Şübhə yoxdur ki, yaxın gələcəkdə bütün bu məsələlər həll olunandan sonra işğaldan azad edilmiş ərazilər Azərbaycanın turizm sığortası sektorunda lider mövqe tutacaq. Əminliklə demək olar ki, bu ərazilər əvvəlcə regional, daha sonra qlobal əhəmiyyət kəsb edən mərkəzə çevriləcək.

Bütün mövcud problemlərə baxmayaraq əminliklə qeyd etmək olar ki, işğaldan azad edilmiş torpaqlarda həyat yenidən canlanacaq, tezliklə Qarabağ regionun ən cəlbedici və ən təhlükəsiz turizm məkanlarından birinə çevriləcək.

İşğaldan azad edilmiş ərazilərdə turizm sığortasının həyata keçirilməsi işlərinin aparılması üçün mövcud problemləri və qarşıdan duran fəaliyyətləri aşağıdakı kimi xarakterizə etmək mümkündür:

- İşğaldan azad edilmiş bölgələrdə baş verə biləcək hərbi əməliyyatların və təhdidlərin aradan qaldırılmasına çalışmaq, bu istiqamətdə tam dövlət tədbirləri və təminatları olmalıdır;
- İşğaldan azad olunmuş bölgələrin yenidən qurulması üçün atılacaq addımlar planlı və mərhələli keçirilməlidir;
- Azərbaycan müharibədən sonrakı dövrdə masa arxasında siyasi mübarizə ilə yanaşı, həm də strateji iqtisadi inkişaf planını hazırlamalıdır;
- İlk növbədə, regionun infrastrukturunu qurmaq lazımdır, əhalinin tezliklə burada yaşaması üçün zəruri olan minimum infrastruktur layihələri həyata keçirilməlidir;
- Köçürmə və məskunlaşma məsələsi sürətləndirilməli, təhlükəsizlik təmin edilməlidir;
- Regional resurslara çıxış investorlar üçün açıq olmalıdır;
- 10 il müddətinə bölgəyə sərmayə qoyacaq şəxslər vergidən azad edilməlidir;
- İstehsal layihələri üçün lazımi avadanlıq, xammal, habelə müəyyən inventar idxalı zamanı gömrük rüsumlarından azad edilməlidir;
- Ölkə əhəmiyyətli layihələrin həyata keçirilməsi prosesi özəl müəssisələrlə birgə həyata keçirilməlidir;
- Dövlət büdcəsindən və dövlət fondlarından investorlar üçün xüsusi subsidiyalar ayrılmalıdır;
- Müəssisələrin tikintisi üçün əlverişli biznes mühiti formalaşmalıdır;
- Birbaşa xarici investisiyalar istiqamətində dövlət zəmanəti yaradılmalıdır;

- Bütün investorlar üçün bərabər imkanlar və təkliflər yaradılmalıdır;
- Hüquqi sığorta proseslərin təkmilləşdirilməlidir;
- Xarici kapital, xüsusilə valyuta əməliyyatlarına uyğun qanunvericilik hazırlanmalıdır (UNEC ekspert, 2020-2021. s.18).

Rayonun turizm sığortası potensialından istifadə ilə bağlı araşdırmalara başlanılıb. Artıq işğaldan azad edilmiş ərazilərdə infrastrukturun yaradılması işlərinə başlanılıb. Bu işlərlə paralel olaraq işğaldan azad edilmiş ərazilərin turizm potensialı ilə dünyanı tanış etmək üçün maarifləndirmə işlərinə başlanılıb, regionun turizm imkanlarından istifadə etmək üçün ilkin araşdırmalar aparılıb (https://www.victorytour.az/az/xidmetler/turizm-sigortasi).

İşğaldan azad edilmiş ərazilərdə turizm sığortası sektorunun inkişafı regionun erkən iqtisadi dirçəlişinə müsbət təsir göstərəcək. Gözəl turizm məkanları olan Şuşa, Laçın və Kəlbəcərin dağ turizmi, ekoturizm, müalicə və mədəni turizm potensialından sığortalanmış şəkildə istifadə etməklə işğaldan azad edilmiş ərazilərin iqtisadi dirçəlişinə töhfə vermək olar.

Regionda təhlükəsizliyin təmin edilməsi, əhalinin geri qayıtması və işğaldan azad edilmiş ərazilərin və ona bitişik ərazilərdə infrastrukturun yaradılmasın da, həmçinin bundan sonra yeni turizm məhsulları yaradılaraq turistlərə təqdim edilməsində turizm sığortasının böyük töhvələri olacaqdır.

Bərpa və turizmin təşkilinin birinci mərhələsində əsas istiqamət daxili turizmin təşkili olacaq - tanışlıq turlarının təşkili, infrastrukturun tam bərpasından sonra isə sağlamlıq turizminin dirçəldilməsi nəzərdə tutulur.

Burada təkcə Azərbaycanda deyil, bütün regionda ən böyük müasir kurortlardan yaradıla bilər. Ötən əsrin 70-ci illərinin əvvəllərində İstisuda ildə 20 milyon butulkaya qədər istehsal gücünə malik sanatoriya və mineral su qablaşdırma zavodu fəaliyyət göstərirdi. Burada ildə 50 minə yaxın insan müalicə olunurdu. Burada balneoloji sanatoriya ilə yanaşı, iqlim sanatoriyaları da yaratmaq mümkündür. Müalicə üçün hamam və dərman çaylarından istifadə edin, müxtəlif otlar, apiterapiya, sağlamlıq yolu, fizioterapiya, qidalanma və s. aid edilə bilər. Müalicə turizminin inkişafının xeyrinə demək lazımdır ki, bu, ətraf mühitə və yerli

əhaliyə ən az mənfi təsir göstərən nadir turizm növlərindən biridir (https://www.trend.az/business/tourism/3376498.html).

Burada Qobustana bənzər maraqlı açıq səma altında muzeylər yaradıla bilər. Bunun üçün Füzuli şəhəri yaxınlığındakı Qarakəpək arxeoloji qazıntılarını və Azıx mağarasını bərpa etmək lazımdır. Mağaranın ərazisi qismən birbaşa mağaranın özündə muzey təşkil etməyə imkan verir. Bu əla interaktiv şou ola bilər.

Azərbaycanın mədəniyyət paytaxtı Şuşadır, hər birimiz üçün xüsusi şəhərdir. Hər bir ev, hər küçə, hər görməli obyekt təkcə əcnəbi qonaqlara deyil, həm də gənc nəslimizə göstərməlidir ki, bu şəhərdə mənəvi mədəniyyətimizin, kimliyimizin geninin, əcdadlarımızın mədəniyyətinin nümunələri cəmləşib (https://vzglyad.az/news).

Artıq burada Vaqifin məqbərəsi bərpa olunub, Üzeyir Hacıbəyovun və Bülbülün ev-muzeyləri bərpa olunub. Yəqin ki, yer üzündə bu qədər incəsənət, ədəbiyyat və musiqi xadimləri yetişdirən ikinci yer yoxdur. Xalq musiqisinə, muğama həsr olunmuş muzeyin yaradılması isə özündən xəbər verir. O, həm də xalq musiqi alətləri muzeyi və.s kimi interaktiv muzey ola bilər (https://m.zerkalo.az).

Bütün bu qədər turizm potensialı olan cənnət yerlərin gəzilməsi və görülməsi üçün turizm sığortasının tətbiqini vacib edir. Bu ərazilərdə hələ də mövcud olan və hələ də bir neçə müddət müddət mövcud olacaq problemlər istər daxili, istərsə də xarici turistlərin yüksək sığortalanmasını labüd edən amillərdən biri kimi çıxış edə bilər.

Deyə bilərik ki, ilk turistlər artıq işğaldan azad edilmiş ərazilərin bəzi rayonlarına səfər ediblər. Bunlar mədəniyyət xadimlərimiz, jurnalistlərimiz, beynəlxalq təşkilatların nümayəndələridir. Bu yaxınlarda turizm şirkətlərinin nümayəndələri Ağdama səfər ediblər.

Bütün bu səfərlər maarifləndirmə məqsədi daşıyırdı. İşğaldan azad edilmiş ərazilərə kütləvi planlaşdırılan turizmin nə vaxt başlayacağı sualına cavab vermək daha çətindir.

Burada əsas göstərici yaşamaq və işləmək üçün şəraitin yaradılması deyil - hər şey Sovet İttifaqının əlamətdar tikinti layihələri ilə müqayisə oluna bilən böyük

sürətlə və geniş miqyasda gedir. Bütün problemlər ilk öncə təhlükəsizlik məsələlərinə aiddir. Bu ərazilərdə təhlükəsizlik tam dövlət səviyyəsində təmin olunduqdan sonra turizm sığortası, onu həyata keçirəcək qurumlar haqqında danışmaq olar.

Ötən əsrin sonlarından başlayaraq ölkədə tuğyan edən siyasi məsələlər ərazilərimizin 20%-dən çoxunun işğalı ilə nəticələnmişdir. Bu işğalla barışmayan xalqımız hər zaman o ərazilərin həsrəti ilə yaşayırdı.

Uzun illərdən sonra müzəffər Azərbaycan ordusunun azad etdiyi ərazilərin bərpası hal-hazırda qarşıda duran ən vacib məsələlərdən biridir. Bərpa prosesi mövcud vəziyyətin və problemlərin tam təhlil olunması ilə mərhələli və planlı şəkildə təşkil olunmalıdır.

İşğaldan azad edilmiş ərazilərimizdə turizm sığortasının formalaşdırılmasından səmərəli istifadə edilməsi üçün aşağıdakıları təklif etmək mümkündür:

1. Turizm sığortasının həyata keçirilməsinən əvvəl mövcud resurslarının inventarizasiyası aparılmalıdır.

2. Rekreasiya ehtiyatlarını hərtərəfli tədqiq etmək və onların təyinatını müəyyən etmək lazımdır.

3. Böyük tarixi, etnoqrafik əhəmiyyəti olan mağaralara xüsusi diqqət yetirilməlidir. Onlar müasir elm və texnologiya səviyyəsində araşdırılıb, yoxlanılıb, kataloqlaşdırılmalıdır. Potensial təhlükələr sığorta obyekti kimi qiymətləndirilməlidir.

4. Bütün rekreasiya ehtiyatlarının (geomorfoloji, hidroloji, geoloji və s.) irimiqyaslı tematik xəritələri ayrıca tərtib edilməlidir.

5. Turizm ehtiyatlarından səmərəli istifadə üzrə dövlət proqramı hazırlanmalıdır.

6. Nəsli kəsilməkdə olan rekreasiya obyektləri mühafizə olunan ərazilər elan edilməlidir.

7. Turizm və rekreasiyanın rasional təşkili üçün beynəlxalq səviyyədə servis xidməti təşkil edilməlidir.

8. Turizm sığortası resurslarının reklamı gücləndirilməlidir.

9. İxtisaslaşmış milli kadrların hazırlandırılması prosesi yerli şəraitin xüsusiyyətlərinə uyğun olaraq sürətləndirilməlidir.

10. Turizm sığortası resurslarının mövcud vəziyyətini nəzərə alaraq investisiyaların artırılmasına təkan verilməlidir.

11. Beynəlxalq təcrübəni öyrənərək onu yerli şəraitə uyğun tətbiq edərək istifadə olunmasına çalışılmalıdır və s. (UNEC ekspert,2020-2021. s.20).

Turizm sığortası sahəsinin inkişafı, müxtəlif müəssisələr və yeni investisiyalar cəlb etmək üçün dövlətdən bu istiqamətdə bir sıra strategiyaların həyata keçirilməsini tələb edir. Aparılan uğurlu siyasət nəticəsində hərbi əməliyyatlar bitəndən dərhal sonra yenidən qurma, bərpa və tikinti işləri başladılmışdır.

## 3.2. İşğaldan azad edilmiş ərazilərin turizm potensialı və onun inkişaf etdirilməsi yolları

Uzun illər boyu mövcud beynəlxalq təcrübələrin təhlili onu göstərir ki, turizm sektoru ölkənin ümumilikdə məşğulluğuna, gəlir səviyyəsinə və istehsal potensialına, eləcə də digər sahələrin davamlı inkişafına mühüm təsir göstərir. Aydın məsələlərdən biridir ki, turizm sektoru daim dəyişən demoqrafik və müxtəlif coğrafiyaya malik iqtisadiyyatın sürətlə inkişaf edən və digər bir sıra sahələrlə əlaqəli olan sektorudur. Statistik təhlillərə əsaslanan proqnozlar turizmin ölkənin və regionun iqtisadiyyatında nə qədər əhəmiyyətli olduğunu göstərir.

Bütövlükdə götürdükdə, turizmin təsirini üç əsas kateqoriyaya bölmək olar:

- Birincisi, burada digər sektorların turizmin əhəmiyyətinə birbaşa və dolayı təsiri;
- İkincisi, regionların sosial-iqtisadi inkişafı və turizmin məşğulluğa təsiri;
- Üçüncüsü, turizmin inkişafı hesabına ölkədə səmərəli infrastrukturun yaradılması bir çox rayonlarda və kənd yerlərində infrastrukturun inkişafına səbəb olur.

Bundan əlavə, turizm həm də ölkələr və regionlar üçün marketinq vasitəsi rolunu oynayır, çünki uğurlu turizm strategiyası ölkənin beynəlxalq miqyasda imicini yaxşılaşdırmağa kömək edir. Turizm sektoru iqtisadiyyatı keçid dövründə olan və inkişaf etməkdə olan ölkələr üçün əsas gəlir mənbəyidir (Барчуков И.С. 2008, s 89).

Ölkəmizin əlverişli strateji yerləşmə mövqeyi, qədim, zəngin tarixi və mədəniyyəti, həmçinin müxtəlif iqlim qurşaqlarının xüsusiyyətlərinə uyğun gələn füsunkar təbiəti turizm sektorunun inkişafı üçün əsaslı zəmin yaradır. Azərbaycan aparılan iqtisadi-siyasi islahatlar bütün sahələrdə olduğu kimi turizm sektorunda da özünü göstərir. Bunun nəticəsidir ki, ayrı-ayrı bölgələr üzrə mövcud turizm potensialının istifadəsi ilbəil artırılır.

İkinci Qarabağ müharibəsindən sonra ölkədə siyasi sabitliyin əldə olunması, ən gözəl mədəni-tarixi-təbii ərazilərin geri qaytarılması ölkənin turizm sektorundan da təsirsiz ötüşməyəcək. Hətta bütün təhlillər göstərir ki, iqtisadi və turizm potensialı işğaldan azad edilmiş ərazilərin bərpasında mühüm addım olmuş olacaqdır.

Qarabağ və işğaldan azad edilmiş ətraf bölgələrdə turizmin inkişafı sayəsində ölkəyə gələn turistlərin sayı bir neçə dəfə artacağını indidən pronozlaşdırmaq mümkündür.

Bütün bunları nəzərə alan, Azərbaycan hökuməti Qarabağ və ətraf bölgələrin ərazilərinin işğaldan azad edilməsindən dərhal sonra rayonların yenidən qurulması işlərinə başladı. Demək olar ki, dərhal Füzuli rayonunda yeni hava limanının və Füzuli-Şuşa istiqamətində yolun təməli qoyuldu.

Mövcud perspektivi yüksək qiymətləndirən xarici ölkələrin də bu regiona marağı çox böyükdür. Yenidən qurma işlərinə ilk mərhələdən başlayaraq İtaliya və Türkiyə də hökumətə qoşuldu. Həmçinin, İsrail, Macarıstan, Yaponiya və digər ölkələrin nümayəndələri turizm potensialını yüksək qiymətləndirdikləri üçün regionun bərpasında iştirak etməkdə maraqlı olduqlarını bildiriblər.

Hal-hazırda post-müharibə və yenidən qurma mərhələsində olan işğaldan azad edilmiş regionların dünya üzrə tanıdılması, buraya ziyarətçilərin cəlb edilməsi

strateji olaraq ən əhəmiyyətli məsələlərdəndir. Beləki 30 il ərzində baş verən vəhşiliklərin sübut kimi nümayişi erməni xislətinin iç üzünü beynəlxalq aləmə tanıtmış olacaqdır (https://vzglyad.az/news).

Azərbaycan Turizm Bürosu 2020-ci ildə onlayn olaraq keçirilən World Travel Market London sərgisində Qarabağın turizm potensialını beynəlxalq arenada diqqətə çatdırıb. Ümumilikdə sərgidə Asiya, Avropa, Şimali Amerika və Körfəz ölkələrindən olan şirkətlərin nümayəndələri ilə əsasən işgüzar əlaqələrin bərpası və inkişafı, şəbəkənin genişləndirilməsi üzrə onlayn görüşlər keçirilib.Bu zaman işğaldan azad edilmiş ərazilərin inkişaf mövzuları, turizm sənayesinin bərpasına, yenidən qurulmasına və formalaşmasına necə kömək etmək barədə müzakirələr aparılıb.

Bu görüşlər əsnasında Azərbaycan Turizm Bürosunun nümayəndələri Azərbaycanda turizm tendensiyaları və cari planlar, o cümlədən işğaldan azad edilmiş Qarabağ regionunun və ona bitişik ərazilərin turizm imkanlarından danışıblar.

İstər beynəlxalq və istərsə də yerli turizm agentlikləri işğaldan azad olunmuş regionların bərpa dövründə və əsasəndə bərpası bitdikdən sonra yüksək turizm potensialına malik olduğunu qeyd edirlər. Bu möhtəşəm region qədim tarixə, unikal fauna və flora nümunələrinə, tarixi-mədəniyyət abidələrinə, bulaqlara, meşələrə, qədim qalalara malikdir.

Aparılan təhlillər onu göstərir ki, mövcud potensiala uyğun olaraq işğaldan azad edilmiş regionlarda və ətraf ərazilərdə turizmin sahələrinə uyğun olaraq müxtəlif istiqamətlər üzrə aşağıdakı daimi və ya müvəqqəti turist klasterləri yaradıla bilər:

1. Füzuli-Xocavənd-Şuşa-Laçın;
2. Füzuli-Cəbrayıl-Zəngilan;
3. Zəngilan-Qubadlı;
4. Kəlbəcər-Laçın;
5. Bərdə-Ağdam.

Məsələn, Laçın-Kəlbəcərdə qış və sağlamlıq turizmini, Qubadlı-Zəngilanda isə təbii və mədəni turizmi inkişaf etdirmək daha rentabelli və məqsədə uyğun olmuş olar.

Turizm potensialının yüksək olması ilə yanaşı işğaldan azad edilmiş ərazilərin ölkənin ümumi iqtisadiyyatının dirçəldilməsində də rolu yetəri qədər olacaqdır. Beləki region Azərbaycanın tikintisində və sənayesində böyük əhəmiyyət kəsb edən müxtəlif növ materiallar və faydalı qazıntılarla çox zəngindir:

- Rəngli daş yataqları - Cəbrayıl, Kəlbəcər;
- Tikinti daşı - Şuşa, Xocavənd, Laçın, Qubadlı, Zəngilan, Cəbrayıl;
- Merkuri-Kəlbəcər, Laçın;
- Qızıl - Ağdərə, Kəlbəcər, Zəngilan.

Bu növ faydalı qazıntıların həmin ərazilərin bərpasında istifadəsi turistlərin daha da çox marağına səbəb olmuş olacaqdır.

Regionun müxtəlif turizm istiqamətləri üzrə potensialı çox yüksəkdir. Təhlillər vasitəsilə bir neçə istiqaməti nəzərdən keçirək.

Yüksək potensiala malik turizm istiqamətlərdən biri də termal turizmdir. Bu turizm istiqaməti xəstələrin sağlamlıqları üçün geotermal bulaqlardan yararlana bildiyi, həmçinin cəlbedici yerlərdə istirahət edə biləcəyi müalicəvi turizm növüdür. İşğaldan azad edilmiş ərazilərin mütləq əksəriyyətində çoxlu mineral suların olması turizmin bu növünün inkişafına imkan verəcək (Bilalov B. Ə., Gülalıyev 2015 Ç. G., s, 47).

Turizmin məhz bu istiqamətinin bərpa edilməsi təkcə Azərbaycan vətəndaşlarını deyil, həm də xarici turistləri regiona müalicə üçün cəlb edəcəkdir. Termal turizm istiqamətinin inkişafı sahəsində yeni xəstəxanalar, sanatoriyalar müalicə-profilaktik komplekslərin tikintisi ən vacib məsələlərdən biri kimi qiymətləndirilməlidir.

Termal sağlamlıq turizminin ən mühüm faydaları aşağıdakılardır:

- Turizmin mövsümi xarakterinin aradan qaldırılması;
- Mehmanxana müəssisələrində yüksək doluluğun təmin edilməsi;
- Müxtəlif hədəf bazarlara daxil olmaq üçün turizmin diversifikasiyası;

- Turizm baxımından inkişaf potensialı olan regionlar üçün imkanların yaradılması;
- Müxtəlif peşə sahələri üçün yeni iş yerlərinin yaranması (F.İ.Qurbanov, Bakı-2007).

İşgaldan azad edilmiş regionlarda termal turizm və sağlamlıq turizmi komplekslərinin yaradılması və ziyarətçilərinin sayını artırmaq üçün aşağıdakı tədbirlər kompleksinin görülməsi əhəmiyyətli olacaqdır:

- Kurort istirahət komplekslərini yeniləmək;
- Yerli turizm mərkəzlərinin yaratmaq;
- Termal turizm müəssisələrini yenidən qurulmaq;
- Xidmətlərin keyfiyyəti yüksətlmək;
- Xidmət üzrə keyfiyyət standartları müəyyən etmək;
- Təhlükəsizlik və gigiyena üçün keyfiyyət standartları müəyyən etmək;
- İnkişaf etmiş ölkələrin termal turizm təcrübəsini uğurlu layihələr üçün əsas kimi nəzərdən keçirtmək;
- Termal turizm müəssisələrində kadrların ixtisasının artırılmasına çalışmaq;
- Sağlamlıq turizminin daşıyıcılarını əks etdirən kataloqlar hazırlamaq;
- Müxtəlif tibbi xidmətlərin müəyyənləşdirilməsini əks etdirən kataloqlar hazırlamaq;
- Tibb müəssisələrinin yaradılacağı sağlamlıq turizmi xəritəsini yaratmaq;
- Azərbaycanın işğaldan azad edilmiş bölgələrinin turizm brendini yüksək səviyyədə təbliğ etmək (UNEC ekspert. Qarabağ Azərbaycandır. №2. 2020-2021).

İnkişaf etdirilməsi Qarabağ və ətraf ərzilər üçün böyük potensiala malik olan turizm istiqamətlərindən biri də, eko turizmdir. Son illərdə hər zamankindən daha çox insan təkrar emala, plastikdən istifadəni azaltmağa, yerli məhsulları satın almağa və daha yaxşı qidalanmağa, enerji və suya qənaət etməyə və ümumiyyətlə ekoloji cəhətdən təmiz elementləri gündəlik həyatlarına daxil etməyə çalışır.

Qeyd etmək lazımdır ki, regionda ekoturizm məhsullarının yaradılması üçün məharətlə istifadə edilməli olan böyük təbii sərvətlər var.

İşğaldan azad edilmiş ərazilərdə eko otellərə və bu növ turizmə sərmayə yatılışının perspektivdə böyük potensiala malik olduğunu proqnozlaşdırmaq mümkündür.

Yaşıl otellər, yaşıl turizm müxtəlif forma və ölçülərdə, həmçinin məsuliyyət səviyyələrində təşkil oluna bilər , lakin bu otellərin və bu növ turizmin bütün xüsusiyyətlərinin ümumi məqsədi karbon emissiyalarını minimuma endirmək və ətraf mühitə müsbət təsir göstərmək üçün işləməkdir. Oteli yaşıl edən, bu növ turizmin bir neçə əsas aspekti bunlardır:

1. Enerjiyə qənaət-mehmanxanalara əhəmiyyətli faydalar gətirir, əməliyyat xərclərini idarə etməyə və azaltmağa və emissiyaları minimuma endirməyə kömək edir.

2. Suya qənaət-suyun təkrar dövriyyəsi və filtrasiya sistemləri quraşdıraraq, uzunmüddətli perspektivdə əhəmiyyətli pula qənaət edə bilərlər.

Qeyd edək ki, Qarabağın və işğaldan azad edilmiş ətraf ərazilərin əlverişli iqlimi və relyefi sayəsində ekoloji, dağ, qış, ekstremal və sağlamlıq turizminə qədər müxtəlif turizm növlərini inkişaf etdirmək mümkündür (Bilalov B.Ə . 2005, s, 68).

İstər qış, istərsə də dağ-ekstremal turizm növünün inkişafı üçün işğaldan azad edilmiş regionlarda böyük potensial vardır. Bu növ turizmin ölkəmizdə son illərdə inkişafı və turistlərin marağı mövcud sahənin iqtisadi cəhətdən də rentabelli olacağını söyləməyə imkan verir.

Həm qış, həm də ekstremal-dağ turizminin fəaliyyəti bir neçə istiqamətlərdə aparıla bilər:

- Şuşa və ətraf yüksəkliklər
- Kəlbəcər və ətraf yüksəkliklər
- Laçın və ətraf yüksəkliklər
- Murovdağ və ətraf yüksəkliklər.

Həmçinin işğaldan azad edilmiş ərazilərdə müxtəlif sənaye sahələrinin və heyvandarlığın inkişafı üçün potensial var. Ən təsirli investisiyalardan biri kənd

təsərrüfatına investisiyalardır. Bu imkanlardan maksimum istifadə etmək lazımdır (https://story.karabakh.center/ru/ekotsid-v-karabakhe).

Beləliklə işğaldan azad edilmiş ərazilərdə regional səviyyədə turizmin davamlı inkişafı üçün aşağıdakı strateji planların həyata keçirilməsi faydalı olacaqdır:

- Otel sənayesinin yenidən qurulması və turistlər üçün alternativ yerləşdirmə formalarının seçilməsi (qismən mehmanxana-pansionatlar, istirahət obyektlərindən istifadə, kirayə evlər və s.);
- Turizm xidmətləri sahəsinin genişləndirilməsi (modernləşdirilməsi);
- Turizm məhsullarının standartlaşdırılması və sertifikatlaşdırılması;
- Turizm xidmətlərinin standartlaşdırılması və sertifikatlaşdırılması;
- Bazar uçotu və nəzarət sisteminin yenidən təşkili, ən perspektivli və gəlirlilərin müəyyən edilməsi;
- Turistlərin kateqoriyaları və inkişafı üçün ilkin prioritet turizm növlərinin seçilməsi;
- Turizmin və onun obyektlərinin regionda və xaricdə(yerli və beynəlxalq bazar) populyarlaşdırılması üçün reklam kampaniyalarının təşkili;
- Qarabağın və ətraf ərzilərin tarixi və mövcud ənənələrinə uyğun olaraq yarmarkaları və sərgiləri;
- Kənd təsərrüfatı və onun əsasında aqroturizmin (kənd turizminin) inkişafı;
- Turizm sənayesi üçün regional kadrların hazırlanması;
- İnkişaf, bərpa, yenidənqurma üçün layihə və tədqiqat sənədlərinin hazırlanması
- Turizm obyektlərinin və ərazilərinin müasirləşdirilməsi,
- Əvvəllər populyar olan, lakin işğal nəticəsində itirilmiş turizm marşrutlarının bərpa edilməsi və yenilərinin yaradılması (Шаров. А.Е. 2012, s.38).

Belə, strategiyalar aşağıdakı daimi əməliyyatların həyata keçirilməsini nəzərdə tutur:

- Mövcud turizm bazarının qiymətləndirilməsi, ən perspektivli seqmentlərin müəyyən edilməsi;
- Turist və rekreasiya axınlarının proqnozu;
- İnvestisiya mənbələrinin və regionda turizm fəaliyyətinin inkişafında maraqlı və təşviq edən təşkilatların müəyyən edilməsi.

Qarabağ və işğaldan azad edilən ətraf bölgələr təkcə Azərbaycanın deyil, dünyanın ən gözəl bölgələrindən biridir. Öz növbəsində isə Azərbaycan Turizm İdarəsi yeni və faydalı bir internet saytı açıb (https://www.trend.az/business/tourism/3376498.html).

WhereisKarabakh.com saytı Qarabağı tanıtmaq üçün yaradılmış onlayn platformadır. Platformanın əsas məqsədi Qarabağın harada yerləşdiyini dünyaya göstərmək, eləcə də region haqqında bir çox maraqlı şeyləri öyrənməyə kömək etməkdir.

İstifadəçi xəritədə istənilən nöqtəni seçib, müəyyən ölkədən Qarabağa qədər olan məsafəni görə biləcək, həmçinin o, tarix, xalçaçılıq və muğam sənəti, görkəmli şəxsiyyətlər, abidələr, Qarabağ atları və s. haqqında onlayn platforma üzərindən geniş məlumat əldə etmiş olacaqdır.

## 3.3. İşğaldan azad edilmiş ərazilərdə mövcud risklər üzrə turizm sığortasının təşkili

Risk anlayışı iqtisadi ədəbiyyatlarda ikili kəmiyyət xarakteristikası kimi başa düşülür: “ehtimal – nəticələr (mümkün ola biləcək zərər)”. Buna görə də, bu anlayışda risk bir fenomen deyil, bir ölçüdür. Beləliklə, riskin iki nəticəsi var:

- öz resurslarının bir hissəsini itirməsi ehtimalı (təhlükəsi);
- əhəmiyyətli fayda (gəlir) əldə etmək imkanı.

Risk öz ölçülməsi ilə, əsasən qiymət, faiz dərəcəsi və ya məzənnə kimi zamanla bu və ya digər kəmiyyət xarakteristikanın dəyişkənliyi ilə göstərilir. Bu, təbii olaraq ölçü deyil, fenomen olan qeyri-maliyyə riskləri ilə bağlı problemlərə gətirib çıxarır.

Risk problemi turizm sığortası kimi hər hansı bir biznes fəaliyyətində həyati vacib anlayışlardan biridir. Sığorta üzrə işgüzar fəaliyyəti qənaətbəxş mükafat gözləyərkən risklərin qəbul edilməsidir. İstənilən istehsalın işə salınması iqtisadi riskdir. Sığorta subyektləri öz biznesinin bütün sahələri və mərhələləri: prosesinin idarə edilməsi, marketinq, müqavilə, kadrlar, avadanlığın texniki xidməti və yenidən qurulması və yenilənməsi, məhsul və ya xidmətlərin tətbiqi və inkişafı üçün bütün imkanlar və istiqamətlər haqqında ətraflı və hərtərəfli biliyə malik olmalıdırlar (Бахрамов Ю.М., Глухов В.В. 2011. S 102).

Qeyri-sabitlik və sürətlə dəyişən situasiya şəraitində regionda və ya bazarda hər hansı bir şirkət rəqiblərin hərəkətlərinin və bazar şəraitindəki dəyişikliklərin bütün mümkün nəticələrini nəzərə almalıdır. Risk təhlili layihə iştirakçılarına mümkün itkilərdən qorunmaq üçün tədbirlər görməyə imkan verir.

Risk turizm sığortasının idarəedilməsinin vacib xüsusiyyətlərindən biridir. Hər cür riskdən qaçmaq istəyən liderlər, özlərini durğunluğa məhkum edə bilər. Riskə hazır olmaq sahibkarın fəaliyyəti, yeniliyə meyllilik, artan intuisiya və məsuliyyətlə əlaqəli sabit xüsusiyyətidir.

Azərbaycanın iqtisadi tarixinə daha dərindən yanaşdıqda aydın olur ki, işğaldan azad edilmiş ərazilərin inkişafı milli iqtisadiyyatın formalaşmasının əsas mərhələləri ilə bərabər səviyyədədir. Təbii ki, işğaldan azad edilmiş ərazilər bizim xeyli daxili və xarici iqtisadi və siyasi səylər bahasına əldə etdiyimiz iqtisadi imkanların xəzinəsidir.

İndi dövlətin əsas vəzifəsi ölkənin işğaldan azad edilmiş hissəsinin vahid sosial-iqtisadi münasibətlər sisteminə ən sürətlə inteqrasiyasına nail olmaqdır. Biz nəinki bu rayonu ümumi inzibati sistemə daxil etməliyik, həm də ölkənin iqtisadi, turizm bazarını genişləndirməliyik. Bu yolda əsas tətik isə turizm sığortalanmasının inkişafıdır.

Lakin turizm sığortası fəaliyyətində istər yerli sahibkar üçün istərsə də xarici investorları qorxudan əsas məsələ regionda mövcud risklərlə bağlıdır. Aydın mövzudur ki, hərbi əməliyyatların bitməsinə, üç tərəfli razılığın əldə olunmasına

baxmayaraq region hələ də yüksək riskə malik ərazilərdən hesab olunur. Bunun bir neçə səbəbləri vardır:

•ərazinin minalanma sahəsinin yüksək olması

•ekstrimist qüvvələrin mövcudluğu

•ekoloji cəhətdən ərazinin uzun illər terrora məruz qalması

•atom elektrik stansiyasının tullantıları ilə çirklənmə nəticəsində radiasiyanın yüksək olduğu ərazilərin mövcudluğu.

Bir sıra risklərin mövcudluğu sığorta fəaliyyətini çətinləşdirsə də, işğaldan azad edilmiş ərazilərin yüksək turizm potensialı, dövlət tərəfindən təminatların verilməsi sahibkarlara riskləri sığortalamağa zəmin yaradır (https://report.az/ru/turizm).

İşğaldan azad edilmiş ərazilərdə turizm sığortasının təşkili ilə bağlı risklər əvvəlcədən hər bir fəaliyyət istiqaməti üzrə qiymətləndirilməlidir. Ümumiyyətlə götürdükdə risk məhfumunun iqtisadi anlayışına nəzər yetirsək onu bir neçə istiqamət üzrə təsnifləşdirmək olar.

**Cədvəl 8: Mövcud risklərin təsnifatı**

| Mühit sahəsi | Riskin faktorları |
|---|---|
| Siyasi | • Ölkədə siyasi qeyri-sabitliyin artması<br>• Tələblərin sərtləşdirilməsi baxımından tənzimləyici təzyiq |
| İqtisadi | • Girişlər üçün artan qiymətlər<br>• Yeni məhsulların bazara çıxarılması perspektivləri ilə bağlı qeyri-müəyyənlik<br>• Bu növ məhsula tələbatın azalması |
| Sosial | • Əhalinin sosial fəallığının və hərəkətliliyinin azalması<br>• Demoqrafik dəyişikliklər |
| Texnoloji | • Yeni texnologiyalardan asılılığının artması<br>• İnnovativ uyğunlaşmanın itirilməsi |
| Hüquqi | • Qanunvericilik bazasında dəyişikliklər<br>• Ticarət məhdudiyyətlərində dəyişikliklər<br>• Ekoloji qanunvericilikdə dəyişikliklər |
| Ətraf mühit | • Ekoloji vəziyyətin pisləşməsi |

**Mənbə:** https://insure.az/public/storage/rules/22__seyahet_sigortasi_qaydalari.pdf əldə edilən məlumatlara əsasən müəllif tərəfindən hazırlanmışdır, 2021

Hazırda müasir bazar iqtisadiyyatının əsas rentabelli qollarından biri olan turizm Azərbaycanda da çox sürətlə inkişaf edir. Təhlillər nəticəsində məlum olur ki, turizm neft sənayesindən sonra iqtisadiyyatın ən gəlirli sahəsi hesab oluna bilər.

O, neft sənayesindən fərqli olaraq ətraf mühiti çirkləndirmir və istifadəsi nəticəsində tükənmir. Ona görə də bu resurslardan istifadə istər sosial cəhətdən, istərsə də ən başlıca təkan verən qüvvə olaraq iqtisadi cəhətdən çox faydalıdır.

Turizm resurslarının səmərəli və rasional formalaşdırılması üçün müasir texnologiyaların nailiyyətlərindən istifadə etməklə hər tərəfli sığortalanmanı təşkil etmək turizm rayonlaşdırılmasını daha səmərəli həyata keçirilə bilər (https://vzglyad.az/news).

Artıq həm daxili, həm də xarici investorlar bilirlər ki, işğaldan azad olunmuş istər Qarabağ iqtisadi rayonu, istərsə də Şərqi-Zəngəzur iqtisadi rayonu çox əlverişli coğrafi mövqeyə malik olmaqla yanaşı, yüksək turizm ehtiyatları ilə də zəngindir. Turizm sığortasının müasir formada tətbiqi bu ərazilərə olan marağın təhlükə qarşısında azalıb itməməsinə səbəb olmuş olacaqdır. Beləki bu ərazilərdə turizm sığortasının mövcudluğu ərazi üzrə yüksək təhlükəsizlik əmsalının olmasınının təminatçısı kimi çıxış edəcəkdir (https://president.az).

Dünya təcrübəsi göstərir ki, turizm sığortasının dinamik inkişafı üçün aşağıdakı şərtlər tələb olunur:

- Sabit sosial-iqtisadi vəziyyət (bütövlükdə dünyada, ayrı bir şəkildə ölkə və bölgədə);
- Sərhədlər keçərkən və qonaq qalma müddətində inzibati və bürokratik maneələrin olmaması;
- Cəlbedici istirahət mənbələrinin mövcudluğu (iqlim və mədəni və tarixi);
- İnkişaf etmiş turizm sığortası üzrə infrastrukturu və ixtisaslı kadrların olması;
- Rahat qalmağı təmin edən yüksək səviyyəli xidmət, qonaqpərvərlik, işçilərin mədəniyyəti və peşəkarlığı səviyyəsi;
- Rahat və təhlükəsiz nəqliyyat, etibarlı rabitə;
- Sərbəst hərəkət etmə və səyahət edənlərin hüquqlarının təmin edilməsi, onların təhlükəsizliyinin təmin edilməsi;

- Turizm sığortası üzrə təşkilatların və onların strukturlarının yüksək məsuliyyəti;
- Ərazinin müsbət turist imici, turistlərə xidmət göstərən firmalar və şirkətlərin yüksək nüfuz.

Təcrübəyə əsaslanaraq, təbii ki, ilk növbədə qeyd etmək lazımdır ki, turizm sığortalanmasının ilkin mərhələsi kimi orada çalışan insanların həyatı sığortalanmalıdır. Buna misal olaraq orada bir sıra beynəlxalq layihələrə start veriləcək. Bundan əlavə, ilkin mərhələdə istehsalatda bədbəxt hadisələrdən icbari sığortanın tətbiqi zəruri olacaq və çox güman ki, proses bununla başlayacaq (https://report.az/ru/turizm).

Azərbaycana dost olan bir sıra dövlətlərin işğaldan azad edilmiş ərazilərə dəvət olunması oradakı infrastrukturun beynəlxalq səviyyədə olması deməkdir. Bu o deməkdir ki, ölkəmizdə beynəlxalq şirkətlər də sığortalanacaq.

Azərbaycan gənc ölkədir və xaricdən gələn investorlar yeni layihələrə başlayanda bu layihələr mütləq sığortalanır ki, bu da öz növbəsində Azərbaycanın sığorta bazarında canlanmaya səbəb olur. Bir neçə il əvvəl Azərbaycanda neft sənayesi üzrə çoxlu uğurlu layihələr olub və bu layihələrin bir çoxu da sığortalandığı üçün sığorta bazarına böyük təkan verdi.

Çünki xarici investorlar heç vaxt bizneslərini sığortalamadan işə başlamazlar. Təcrübə göstərir ki, turizm sığortası böyük əhəmiyyət kəsb edir, çünki turizm faktiki olaraq dünyanın ən gəlirli sahələrindən biridir. Turizm sənayesinin cəlbediciliyinin ən başlıca səbəbi resursların tükənməməsidir (https://xalqqazeti.com/az/news/73571).

Nəzərə alsaq ki, turizm sığortasının inkişafı coğrafiyası yaxın illərdə məhz işğaldan azad edilmiş ərazilərdə olacaq, bazarın xüsusiyyətlərini də buna uyğunlaşdırmaq lazımdır.

İşğaldan azad edilmiş ərazilrdə turizm sığortalanması ilə məşğul olacaq şirkətlər terrorizm kimi məsələləri də sığorta məhsullarına daxil etməlidirlər. Düzdür, bu, sığorta şirkətlərimizə sərf etməyəcək və regionun təhlükəli olması

anlamına gələcək, amma regionun inkişaf etdirilməsi üçün bütün risklər nəzərə alınmalıdır (http://margin.az/ru).

İşğaldan azad edilmiş ərazilərin inkişafına təbii ki, hökumətin xüsusi münasibəti lazımdır. Məlum olduğu kimi, ölkənin azad edilmiş hissəsinin dirçəldilməsi turizm sığortası üçün  genişləndirilmiş üstünlüklər mexanizmindən istifadə ediləcək, çünki bu ərazilərdə inkişafa uyğun olaraq qarşıya qoyulan məqsədlərə nail olunmasına məhz yerli və xarici investisiyaların axını təminat verir. Burada təsərrüfat subyektləri üçün üstünlüklərin və hər cür güzəştlərin olması çox aktualdır (https://media.az/society/1067844276).

İşğaldan azad edilmiş ərazilərdə turizm sahibkarlığı fəaliyyətinin həyata keçirilməsi, hansı formada olursa olsun, iqtisadi və ya digər bir növ risklərlə zəngindir. Əmtəə-pul, bazar münasibətlərinin inkişafı ilə əlaqədar olaraq, sahibkar artan gözlənilməz vəziyyət və qeyri-sabit iqtisadi mühit şəraitində öz təsərrüfat fəaliyyətini həyata keçirməyə məcbur olur. Deməli, gözlənilən son nəticənin əldə edilməsində hər zaman qeyri-müəyyənlik yaranır və buna görə də risk artır, yəni uğursuzluq ehtimalı, gözlənilməz itkilər daim müəssisəsinin fəaliyyətinin ayrılmaz hissəsi olaraq qalır. Bu, xüsusilə işğaldan azad edilmiş ərazilərdə inkişafın ilkin mərhələlərində özünü göstərmiş olacaqdır.

Elmi iqtisadi tədqiqatların, eləcə də biznes praktikasının əhəmiyyətli hissəsi miqyasından və fəaliyyət xarakterindən asılı olmayaraq turizm sığortasının üzləşməli olduğu risklərin daim artan roluna işarə edir.

Müəssisələr daim artan riskləri nəzərə almadıqda və onlardan öz mənfəətlərini əldə edə bilmədikdə, müəssisələr üçün liberal "iqtisadi davranış"ın təsirsiz və əks məhsuldar ola biləcəyini başa düşmək getdikcə daha çox təsir göstərir.

Bu gün işğaldan azad edilmiş ərazilərdə müşahidə olunan risklərin idarə edilməsi probleminə belə maraq effektiv və məhsuldar kəşfi təmin edən ümumi qəbul edilmiş aspektin yaradılmasının şərtiliyi, açıqlama, qiymətləndirmə və risklərin idarə edilməsinin labüdlüyü getdikcə daha aydın görünür (http://margin.az/ru).

Qeyd etmək lazımdır ki, mövcud qeyri stabil vəziyyətlə əlaqədar olaraq işğaldan azad olunmuş hər iki iqtisadi rayon üzrə turizm və rekreasiya ehtiyatları son dərəcə zəif tədqiq edilib. Bu səbəbdəndir ki, mövzu ilə bağlı ətraflı tədqiqat tələb olunur. Yalnız bundan sonra turizm sığortasının perspektivləri, problemləri və riskləri barədə dəqiq məlumatlar vermək mümkün olacaq.

## NƏTİCƏ VƏ TƏKLİFLƏR

Dissertasiya işinin məzmununu Azərbaycanın işğaldan azad olunmuş ərazilərində turizm sığortasının inkişafının nəzəri və metodoloji problemlərinin həlli yollarının axtarışını, sosial-iqtisadi inkişafın təhlilini və konkret nəticələrin əldə edilməsini və bu regionda turizm üzrə sığortalanma işlərinin təşkilinin təkmilləşdirilməsi üzrə təkliflər müəyyən edir.

Bildiyimiz kimi, Ermənistan dövləti tərəfindən işğal olunmuş ərazilərimiz azad edildikdən sonra bərpa prosesi sürətlə başlanılmışdır. Mənfur düşmən illərdir ki, işğal altında olan ərazilərimizin infrastrukturunu dağıdıb, eləcə də torpaqlarımızı minalayıb.

Bu səbəbdəndir ki, turizm obyektlərinin təşkil edilməsi kimi iqtisadi inkişaf layihələrinin icrasına torpaqların minalardan təmizlənməsi, yeni yollar, qaz, su, işıq, kommunikasiya kimi ümumi infrastrukturların bərpası başa çatdıqdan və yaşayış üçün əsas şərait yaradıldıqdan sonra başlanmalıdır.

Azad edilmiş regionda sənaye, su təchizatı, elektrik enerjisi, sənaye rekreasiya imkanları, qida sənayesi potensialı, faydalı qazıntılar, xammal və s. kimi imkanları qiymətləndirmək olar. Azərbaycan iqtisadiyyatının inkişafı və böyüməsi əhəmiyyətli dərəcədə səmərəli investisiya fəaliyyətindən asılıdır.

Tədqiqatın nəticələrinə əsasən belə qənaətə gəlmək olar ki, işğaldan azad olunmuş ərazilərdə turizmi və sığortalanmanın təşkili istiqamətlərinin inkişafının sosial-iqtisadi səmərəliliyinə nail olmaq üçün dövlət bərpa fəaliyyətini motivasiya etməli, rəqabəti inkişaf etdirməli və innovasiya prosesini tarazlaşdırmalıdır. Bu, dinamik iqtisadi inkişaf səviyyəsini artırmaq imkanlarını təmin edir.

İşğaldan azad olunmuş ərazilərin təbiətinin zənginliyi və rəngarəngliyi bu regionun turizminin inkişafına geniş imkanlar yaradacaqdır.

Araşdırmalar göstərir ki, turizm sığortalanması üzrə resurs potensialının formalaşmasının əsas mexanizmləri: dövlətin, əhalinin və sahibkarların gəlirləri və onlardan istifadə ilə müəyyən edilir. İşğaldan azad edilmiş ərazilərdə turizm sığortasının inkişafı, təkmilləşdirilməsi və stimullaşdırılması məqsədilə

investisiyayönümlü sahələri, eləcə də regionda yeni məşğulluq sahələrinin yaranmasına səbəb olacaqdır.

Sosial rifahın yaxşılaşdırılmasında əhəmiyyətli rol oynayan bütün sahələrin dəstəklənməsi məqsədi ilə mövcud potensiala uyğun olaraq turizmin inkişafı və turizm sığortasının təşkili bu ərazilərin təbliğ olunması və inkişaf etdirilməsi üçün daim regionlarda fəaliyyətlər həyata keçirilməlidir.

İşğaldan azad olunmuş ərazilərdə turizm sığortasının təşkilinin iqtisadi potensialının qiymətləndirilərək həyata keçirilməsi regionun inkişafına kömək etməsinə də töhvə vermiş olacaqdır. Beləliklə, bərpa və yenidənqurma prosesi bütövlükdə bu istiqamətdə xidmətlər göstərmək üçün fəaliyyətin səmərəliliyinin artmasına köməklik edəcəkdir.

İşğaldan azad olunmuş ərazilərdə turizm sığortasının təşkilinin iqtisadi əsaslarının formalaşdırılması istiqamətlərinin işlənib hazırlanıb, həyata keçirilməsi üzrə aşağıdakı təklifləri vermək olar:

- İlk növbədə, işğaldan azad edilmiş ərazilərin bərpası və dirçəldilməsi məqsədlərinə cavab verən dövlətin investisiya siyasəti istiqamətləndirilməlidir;
- İşğaldan azad edilmiş ərazilərdə investisiya - innovativ layihələrin inkişafı və maliyyələşdirmə mənbələrinin müəyyənləşdirilməsi, maliyyə dəstəyi mexanizmlərinin alternativ xarakter daşıması təmin edilməlidir;
- İşğaldan azad edilmiş ərazilərdə iqtisadiyyatın müxtəlif sahələrinin dirçəldilməsi üçün məqsədli proqramlar və investisiyaların cəlb edilməsi konsepsiyasını hazırlamaq lazımdır;
- Regionda turizm potensialı olan ərazilərdə mülkiyyət münasibətlərinin, mülkiyyətdən istifadə qaydalarının sahənin tələblərinə uyğun ciddi şəkildə tənzimlənməlidir;
- Regionun sosial-iqtisadi inkişafını təmin etmək və xarici investisiyaları cəlb etmək məqsədilə beynəlxalq əməkdaşlığı maksimum dərəcədə artırmaq və maliyyə dövriyyəsinə sərbəst resursların cəlb edilməsi çalışmaq lazımdır;
- Regionun turizm sığortası potensialından istifadə səviyyəsinin artırılması üçün vergi və faiz güzəştlərindən istifadə edilməlidir;

- Sərhəd buraxılış məntəqələrində işğaldan azad edilmiş ərazilərə gəlmək istəyən turistlərin sığortasının aparılması ilə ölkəyə buraxılması, həmçinin sənədləşmə qaydalarının real formada sadələşdirilməlidir;
- Regionda mövcud turizm sığortası potensialına uyğun olaraq yerli və xarici investisiyaların təşviqi, stimullaşdırılması və həvəsləndirilməsi üçün kompleks yanaşmanın işlənib hazırlanması və məqsədyönlü tədbirlər görülməlidir;
- Milli dəyərlərin, adət və ənənələrin dövlət tərəfindən sığortalanaraq mühafizə edilərək inkişaf etdirilməsi.

Yuxarıda deyilənləri yekunlaşdıraraq qeyd etmək lazımdır ki, turizm sığortası fəaliyyətinin təşkil edilməsi işğaldan azad olunmuş ərazilərin iqtisadiyyatın inkişafı üçün təsirli bir vasitədir. İşğaldan azad edilmiş ərazilərdə yeni və son texnoloji nailiyyətlərin tətbiq olunduğu turizm obyektləri inkişaf edə bilər və edilməlidir. Qoyulmuş məqsəd və vəzifələrə uyğun olaraq, müasir dövlətin sosial inkişafı üçün bu fəaliyyətlərin formalaşmasının nəzəri və metodoloji əsasları daha geniş öyrənilməlidir.

İşğaldan azad edilmiş ərazilər hər tərəfli yüksək turizm potensialına malikdirlər. Potensialı yüksək olan bu rayonlarda öz potensialından istifadə etməyə imkan verən normal infrastruktur sisteminin yaradılması perspektivə uyğun fəaliyyətə imkan verəcək amillərdəndir.

Yeni turizm müəssisələrinin yaradılmasında mövcud perspektivlər və potensiallar nəzərə alınarsa işğaldan azad edilmiş ərazilərin Azərbaycanın böyük gələcəyinə tam inteqrasiyasını təmin etmək daha asan olacaqdır.

Müharibənin qələbə ilə başa çatması məcburi köçkünlərə öz doğma yurdlarına qayıtmağa və orada yaşamağa, sahibkarlara isə istər daxili bazarda, istərsə də xarici bazarda yüksək rəqabət qabiliyyətliliyə malik məhsullar istehsal edən müəssisələr yaratmağa imkan vermiş oldu.

Burada turizm obyektlərinin açılması və sığortalanmanın fəaliyyət göstərməsi üçün işğaldan azad edilmiş ərazilərdə dayanıqlı məskunlaşma təmin edilməlidir. Bunun üçün bu ərazilər cəmiyyətin ən sağlam, ən müasir və firavan yaşayış

mühitinə çevrilməli, davamlı məskunlaşmanın müasir prinsiplərinə əsaslanan rahat yaşayış mühiti yaradılmalıdır.

Beləliklə, turizm sığortası üzrə aparılacaq işlər iqtisadiyyatın səmərəliliyinə müsbət təsir göstərərək, iqtisadi artım tempinin yüksəldilməsinə kömək etmiş olacaqdır.

# İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI

## Azərbaycan dilində


1. Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 2020-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş videokonfrans zaman nitqindən.

2. Azərbaycan Respublikası Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin Azərbaycan xalqına müraciətləri (27.09.2020-ci il tarixindən etibarən)

3. Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında 07 iyul 2021-ci il tarixli Azərbaycan Respublikası Prezidentinin Fərmanı

4. Bilalov B.Ə. (2005). "Turizmin menecmenti" Bakı, Mütərcim nəşriyyatı

5. Bilalov B.Ə. (2006). "Turizm fəaliyyətinin tənzimlənməsi". Bakı, "Mütərcim" nəşriyyatı, 280 s.

6. Bilalov B.Ə., Gülalıyev Ç.G. (2015). "Turizmin əsasları" Bakı

7. Cabbarov Ə. (2008). "Turizmin inkişafının regional problemləri" Naxçıvan

8. Cabbarov Ə. (2015). "Turizmin iqtisadi əsasları" Bakı

9. Əlirzayev Ə.Q. (2010). "Turizmin iqtisadiyyatı və idarə edilməsi"- Bakı. İqtisad Universiteti" Nəşriyyatı.

10. Əlirzayev Ə.Q. (2010). "Turizmin iqtisadiyyatı və idarə edilməsi".Bakı, İqtisad Universiteti" Nəşriyyatı

11. Hüseynov İ., Əfəndiyev N. (2007). "Turizmin əsasları" Bakı, 442 səh.

12. İsmayılov F. (2016). "Azərbaycanın işğal olunmuş ərazilərindəki tarix və mədəniyyət abidələrinə vurulan zərər". Bakı

13. Qarabağ Abidələri - Karabakh Monuments - Памятники Карабаха, Bakı, 2009.

14. Qurbanov F.İ. (2007). "Azərbaycanda Turizmin inkişaf problemləri". Bakı, "Adiloğlu" nəşriyyatı

15. Prezident İlham Əliyevin 2020-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş videokonfrans zaman nitqindən.

16. Soltanova H.B., Hüseynova Ş.H. (2007). "Turizmin əsasları" Bakı, "Mütərcim" nəşriyyatı

17. UNEC ekspert. Qarabağ Azərbaycandır. №2. Bakı. 2020-2021.

18. Zeynal Əkpərov AMEA-nın müxbir üzvü, 25 noyabr 2020-ci il "İşğaldan azad edilmiş ərazilərdə aqrobiomüxtəlifliyin bərpası və inkişaf etdirilməsi". Respublika qəzeti. Səhifə 10.

**Rus dilində**

1. Гвозденко А. А. (1998). Основы страхования. Учебник.- М.: Финансы и статистика
2. Гвозденко А. А. (2010). Страхование в туризме. М.: ТК Висби «Издательство Проспект» . 464 с.
3. Гвозденко А. А. (2002). Страхование в туризме: Учебное пособие/А. А. Гвозден-ко. — М.: Аспект Пресс,— 256 с.
4. Камышанова Е.А. (2008). Безопасность туризма в РФ: основные проблемы и пути их разрешения // Вестник национальной академии туризма. №3(7). С. 9–12.
5. Квартальнов В.А., Зорин И.В. Энциклопедия туризма: Справочник. М.: Финансы и статистика, 2010. - 391с.
6. Кусков А.С. (2011). Рекреационная география: Учебно-методический комплекс/ А.С. Кусков, В.Л. Голубева, Т.Н. Одинцова. - М.: Флинта: МПСИ, 496 с.
7. Маринин М.М. (2002). Туристские формальности и безопасность в туризме. - М.: Финансы и статистика, 422 с.
8. Писаревский Е.Л. (2002). Туристская деятельность: Проблемы правового регулирования. - Владивосток: Восток, 432 с.
9. Писаревский Е.Л. (2006). Финансовые гарантии в праве европейских государств //Туризм: право и экономика. № 4.
10. Сенин В. С. Организация международного туризма. М.: Финансы и статистика, 2005. 400 с
11. Спектор А.А. (1998). Страхование. Пермь, с. 13
12. Толкачева О.П., Джобинашвили К.А. (2011). Особенности страхования в отрасли туризма // Вестник Санкт-Петербургского университета МВД России. № 3.С. 155–158.

13. Тюрин А. (2016). Страхование: шаг в будущее. Турбизнес, . №4.

**İnternet resursları**

1. https://files.preslib.az/projects/azerbaijan/gl8.pdf Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi – Prezident Kitabxanası (2021). Azərbaycan – Ermənistan münaqişəsi

2. https://aznotary.az Azərbaycan Respublikası Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin Azərbaycan xalqına müraciətləri (27.09.2020-ci il tarixindən etibarən)

3. https://azerbaijan.az/related-information/126

4. http://www.azerbaijan-news.az/view-202021/ilham-eliyev-qarabagi-azerbaycanin-en-inkisaf-etmis-mekanina-cevirecek

5. https://science.gov.az/news/open/16136

6. http://unwto.org/ World Tourism Organization UNWTO.

7. http://www.gks.ru.

8. . https://www.azerbaijan.az/ Heydər Əliyev Fondunun təşkilatçılığı yaradılan "Azərbaycan" portalının rəsmi internet resursu

9. stat.gov.az/source/tourism/

10. http://webcache.googleusercontent.com/:medeniyyet.az/Turizm-senayesinin-inkisafina-dair-Strateji-Yol-Xeritesi.

11. http://www.xocalininsesi.info/

12. https://www.virtualkarabakh.az

13. https://www.karabakh.center/az

14. https://www.president.az

15. https://www.victorytour.az/az/xidmetler/turizm-sigortasi

16. https://vzglyad.az/news

17. http://margin.az/ru

18. https://m.zerkalo.az

19. https://www.trend.az/business/tourism/3376498.html

20. https://report.az/ru/turizm

21. https://xalqqazeti.com/az/news/73571

22. https://story.karabakh.center/ru/ekotsid-v-karabakhe

23. https://insure.az/public/storage/rules/22__seyahet_sigortasi_qaydalari.pdf, 2021

## Cədvəllərin siyahısı

**Cədvəl 1:** Turizm sığotasının növləri və məzmunu....................................................................19

**Cədvəl 2:** Səyahət sığortasının formaları.......................................................................................24

**Cədvəl 3:** 2021-ci ilin əvvəlinə işğaldan azad edilmiş iqtisadi və inzibati rayonlarının ərazisi..26

**Cədvəl4:** Uzun illər erməni işğalı nəticəsində dilbər güşələrimizdə dağıdılan obyektlərin statistikası ..........................................................................................................................28

**Cədvəl 5:** 2019-cu ilin sonuna Azərbaycan Respublikasının işğaldan azad edilmiş şəhər və rayonları üzrə dövlətin mühafizəsində olan daşınmaz tarixi-mədəniyyət abidələrinin əhəmiyyətinə görə bölgüsü.................................................................................................29

**Cədvəl 6:** Turizmin təsnifatı...........................................................................................................31

**Cədvəl 7:** Turizm sığortası üzrə mövcud xarici təcrübə...............................................................45

**Cədvəl 8:** Mövcud risklərin təsnifatı..............................................................................................62